RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 47 (9214) 2 MART 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# İlham Əliyevin növbəti qlobal təşəbbüsü reallaşır

## Bakıda Qoşulmama Hərəkatının postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçirilir

Bu gün Bakıda beynəlxalq problemlərin həllində müsbət rol oynayan və müasir dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında yüksək potensiala malik olan Qoşulmama Hərəkatının postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçiriləcək.

Bu toplantının keçirilməsi təşəbbüsü Qoşulmama Hərəkatının Sədri, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb. Azərbaycan Prezidenti hələ 2021-ci ildə Qoşulmama Hərəkatının yaradılmasının 60-cı ildönümünə həsr edilən Belqrad tədbirində postpandemiya dövrünün müzakirə edilməsi məqsədilə hərəkata üzv ölkələrin yüksəksəviyyəli görüşünün keçirilməsi təklifi ilə çıxış etmişdi.

Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə də güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in keçmiş Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur qalmalarını göstərmək olar. Ümumiyyətlə, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı hərəkata üzv dövlətlər tərəfindən alınıb.

→ 6

## Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlər çox yaxşı səviyyədədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç ilə görüşüb.**

→ 2

## Azərbaycanla Beynəlxalq Miqrasiya Təşkilatı arasında sıx əlaqələr var



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorinonu qəbul edib.**

→ 2

## *Əbdüllətif Camal RƏŞİD:* "Əməkdaşlığımızı genişləndirmək üçün yaxşı imkanlar mövcuddur"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.**

→ 2

## *Şavkat MİRZİYOYEV:* "Azərbaycanın, şəxsən Sizin uğurlu sədrliyiniz ilə bu təşkilatın nüfuzu artıb"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

→ 2

## Aleksandar Vuçiç İlham Əliyevə zəng edib



**Martın 1-də Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı zamanı Aleksandar Vuçiç Serbiya ilə Kosovo arasında Brüsseldə keçirilən dialoq səbəbindən Qoşulmama Hərəkatının Təmas Qrupunun Bakı Zirvə Görüşündə iştirak edə bilmədiyini dedi, Serbiyanı Bakıdakı tədbirdə xarici işlər nazirinin təmsil edəcəyini bildirdi. Serbiya Prezidenti bu dialoqun gedişi barədə dövlətimizin başçısına məlumat verdi.

Aleksandar Vuçiç Serbiyanın dost Azərbaycan ilə qarşılıqlı hörmət və anlaşmaya, o cümlədən dəstəyə əsaslanan münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti iki dövlət başçısının yüksək şəxsi münasibətləri sayəsində dinamik inkişaf edən Azərbaycan-Serbiya strateji tərəfdaşlığını yüksək qiymətləndirdiyini vurğuladı, bu ilin də ikitərəfli münasibətlərimiz üçün uğurlu olacağına ümid etdiyini bildirdi.

Söhbət zamanı enerji sahəsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

***Prezidentin Mətbuat Xidməti***

## İlkin müzakirələr aparılıb

Martın 1-də Ramin Məmmədov Xocalı şəhərində, Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin qərargahında Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb.

→ 4

## Azərbaycan Ermənistanı beynəlxalq platformalarda ifşa edir

Birinci Qarabağ müharibəsindən etibarən erməni silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı qırğınlar törədilib, 1992-ci ildə Xocalıda soyqırımı həyata keçirilib. Bu günədək Ermənistan Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib. Dünyanın gözü qarşısında əl atdığı bu hərbi cinayətlərə görə Ermənistan beynəlxalq səviyyədə hüquqi məsuliyyətə cəlb olunmayıb.



→ 8

## BMT-də islahatların aparılması zamanın tələbidir



BMT çərçivəsində çoxtərəfli əməkdaşlıq Azərbaycana beynəlxalq aləmdə mövqelərini möhkəmləndirməyə, daha sıx əlaqələr yaratmağa imkan verdi.

Hazırda Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlığını davam etdirir. Lakin Prezident İlham Əliyevin sözləri ilə desək, Təhlükəsizlik Şurasının dörd məşhur qətnaməsinin icra edilməməsi bu təşkilatın nüfuzuna, əlbəttə ki, əgər belə demək mümkündürsə, əlavə dəyər qatmadı: "Amma indiki şəraitdə artıq təkcə biz yox, bir çox ölkələr də israrla deyirlər ki, bu qurumda ciddi islahatlar aparılmasına ehtiyac var, xüsusilə Təhlükəsizlik Şurasının tərkibinə yenidən baxılmalıdır".

→ 8

## Ekoaksiya 81 gündür davam edir

Azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası 81 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, ekofəallar və könüllü gənclər hər gün olduğu kimi, bu səhər də Dövlət himnini səsləndiriblər.

Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər.

Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.




→ 12

# Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlər çox yaxşı səviyyədədir



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfər etdiyinə görə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə minnətdarlığını bildirdi, səfər zamanı ikitərəfli əlaqələrimizlə bağlı müzakirələr aparmaq üçün imkanların da yarandığını dedi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri ölkəmizdə olmasından məmnunluğunu bildirdi, Bakının gözəlliyinin onu heyran etdiyini dedi. Qonaq münasibətlərimizin yüksək səviyyədə olduğunu qeyd etdi, COVID-19 dövründə və Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın onun ölkəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğuladı.

Jelka Tsviyanoviç iqtisadiyyat, ticarət, investisiya, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd etdi.

Görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi münasibətlərin çox yaxşı səviyyədə olduğu qeyd edildi. Ancaq iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsinin, həmçinin biznes dairələri arasında birbaşa təmasların təşviqinin vacibliyi bildirildi.

Söhbət zamanı Bakı və Sarayevo şəhərlərinin hələ ötən əsrin 70-ci illərindən qardaşlaşmış şəhərlər olduğu xatırladılaraq, şəhərlərarası əlaqələrin inkişafının da önəmi vurğulandı.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi.

Azərbaycan Prezidenti dəvəti məmnuniyyətlə qəbul etdi.

# Azərbaycanla Beynəlxalq Miqrasiya Təşkilatı arasında sıx əlaqələr var

Əvvəli 1-ci səh.



AZƏRTAC xəbər verir ki, Antonio Vitorino Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə dəvət edildiyinə görə təşəkkürünü bildirdi, bu sammitin hazırda beynəlxalq gündəlikdə duran məsələlərin müzakirəsi baxımından çox yaxşı fürsət yaratdığını dedi.

Azərbaycan ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında çox sıx əlaqələrin olduğunu vurğulayan dövlətimizin başçısı Qoşulmama Hərəkatının Bakıda keçiriləcək sammitində iştirak etdiyinə görə Antonio Vitorinoya minnətdarlığını ifadə etdi. Prezident İlham Əliyev Qoşulmama hərəkatına sədrlik dövründə ölkəmizin bu Hərəkatın daha da təsisatlanması istiqamətində bir sıra təşəbbüslərlə çıxış etdiyini bildirdi.

Ölkəmizlə rəhbərlik etdiyi təşkilatın səmərəli əməkdaşlığına görə təşəkkürünü ifadə edən Antonio Vitorino Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair Birinci Dövlət Proqramının əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, Beynəlxalq Miqrasiya Təşkilatı öz təcrübəsindən çıxış edərək bu prosesə dəstək verə bilər. O, həmçinin dedi ki, bu təşkilat yarandığı gündən bəri dünyanın müxtəlif ölkələrində məcburi köçkünlərin və qaçqınların qayıtması üzrə çox geniş təcrübəyə malikdir və bu təcrübəni Azərbaycan tərəfi ilə bölüşməyə hazırdır.

Antonio Vitorino ölkəmizdə Beynəlxalq Miqrasiya Təşkilatının regional təlim mərkəzinin yaradılmasının vacibliyini qeyd etdi, bu mərkəzin həm Azərbaycanda, həm də region ölkələrində imkanların artırılmasına və peşəkar kadrların hazırlanmasına töhfə verəcəyini dedi.

Qonaq Azərbaycanın qaçqınların müdafiəsi və beynəlxalq miqrasiya üzrə məşvərətçi proses olan 2023-2024-cü illər üzrə Almatı prosesinə sədrliyini qeyd edərək, miqrasiya ilə bağlı davamlı dialoqun və məlumat mübadiləsinin müzakirəsi baxımından bu platformanın əhəmiyyətini vurğuladı.

Görüşdə azərbaycanlı mütəxəssislərin Beynəlxalq Miqrasiya Təşkilatında və BMT-nin digər strukturlarında təmsilçiliyinin artırılmasının vacibliyi bildirildi.

Antonio Vitorino Azərbaycanın yeni donor ölkə kimi təşkilatın büdcəsinə verdiyi maliyyə töhfələrinin də yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

# İkitərəfli əlaqələr barədə fikir mübadiləsi aparıldı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Ali Şurasının üzvü, Ras əl-Xeymə Əmirliyinin hakimi Əlahəzrət Şeyx Saud Bin Saqr Al-Qasimini qəbul edib.



AZƏRTAC xəbər verir ki, Azərbaycanda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Əlahəzrət Şeyx Saud Bin Saqr Al-Qasimi bu tədbirin xüsusi önəm daşıdığını bildirdi.

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

Azərbaycan Prezidenti Əlahəzrət Şeyx Saud Bin Saqr Al-Qasiminin səfərinə və Birləşmiş Ərəb Əmirliklərinin sammitdə iştirakına görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlıq münasibətlərinin olduğunu qeyd etdi, iki ölkənin liderlərinin münasibətlərini xüsusi vurğuladı.

Sammitin əhəmiyyəti barədə danışan Azərbaycan Prezidenti ölkəmizin sədrlik dövründə Qoşulmama Hərəkatının təsisatlanması və beynəlxalq münasibətlər sistemində rolunun artırılması baxımından ciddi şəkildə fəaliyyət göstərdiyini dedi.

Görüşdə ikitərəfli əlaqələr barədə fikir mübadiləsi aparıldı. Bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin ölkəmizdə həyata keçirdiyi layihənin əhəmiyyəti vurğulandı. Turizm sahəsində əməkdaşlığın inkişaf etdiyi bildirilərək, qarşılıqlı turist səfərlərinin artmasının insanlar arasında təmaslara xidmət etdiyi qeyd olundu.

# *Şavkat MİRZİYOYEV:* "Azərbaycanın, şəxsən Sizin uğurlu sədrliyiniz ilə bu təşkilatın nüfuzu artıb"

Əvvəli 1-ci səh.



- Hörmətli Şavkat Miromonoviç, xoş gəlmisiniz. Vaxt tapıb Azərbaycana səfər etdiyiniz üçün sağ olun. Birlikdə mühüm beynəlxalq tədbirdə iştirak edəcəyik, lakin həm də görüşmək, söhbət etmək və bizim əvvəlki görüşlərimiz zamanı da razılığa gəldiyimiz kimi, verdiyimiz tapşırıqların yerinə yetirilməsinə nəzarət etmək üçün yaxşı imkandır.

**Prezident Şavkat Mirziyoyev:** Komandalarımıza.

**Prezident İlham Əliyev:** Düşünürəm ki, komandalar yaxşı işləyir. Onlar tez-tez görüşürlər, bu yaxınlarda yenə Özbəkistanda mühüm görüş olub. Həmçinin telefonla çox fəal ünsiyyətdə olurlar. Beləliklə, bütün istiqamətlər üzrə çox fəal qarşılıqlı fəaliyyət aparılır.

Zənnimcə, ötən il münasibətlərimizin inkişafında rekord il olub. Mən üç dəfə Özbəkistana səfər etmişəm. Bu il Sizin səfərinizlə başlayır. Əminəm ki, bu il bir neçə görüş keçirəcəyik. Çünki müzakirə olunası çox məsələ, çoxlu mövzular var.

Ən başlıcası, bizim qəbul etdiyimiz bütün qərarlar vaxtında və hətta düşünürəm ki, planlaşdırdığımızdan da böyük həcmdə yerinə yetirilir. Çünki elə bu yaxınlarda Daşkənddə tədbirdə yeni ideyalar, yeni layihələr müzakirə olunub. Həm sənaye kooperasiyası, həm kənd təsərrüfatı, həm şəhərsalma - bütün istiqamətlər üzrə proses qardaşlar arasında getməli olduğu kimi davam edir. Mən Sizə bu münasibətə görə çox təşəkkür edirəm.

Mən Özbəkistana səfərlərimi böyük səmimiyyətlə xatırlayıram. Göstərilən qonaqpərvərliyi xoş duyğularla xatırlayıram. Həmçinin Qarabağın bərpasında iştiraka görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, xarici dövlət tərəfindən maliyyələşdirilən ilk xarici layihədir. Bu, Sizin tərəfinizdən keçmiş köçkünlərə hədiyyə edilən məktəbdir. Biz buna görə çox minnətdarıq. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir. Tikinti işləri sürətlə gedir. İnşallah, bu il birlikdə qeyd edəcəyik. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Bizə çox doğma, yaxın və dost ölkə Azərbaycanda olmaq mənim üçün çox xoşdur. Həqiqətən, biz hazırlaşırdıq və bu gün ilk dəqiqədən bu cür qonaqpərvərliyi hiss edirik. Biz sanki öz evimizdəyik. Buna görə çox sağ olun.

Əslində, Siz qeyd etdiyiniz kimi, bizim mütəmadi görüşlərimiz strateji tərəfdaşlığımıza tamamilə yeni məzmun gətirib. Son illər biz Sizinlə ikitərəfli münasibətlərimizdə böyük sıçrayış etmişik. Artıq Sizin dediyiniz kimi, bizim komandalar da başqa cür işləyir. Real nəticələr var və yəqin ki, bizim hər bir görüşümüz münasibətlərimizə, razılaşmalarımıza impuls verir.

Düşünürəm ki, bizim ciddi nəzarət edəcəyimiz komandalarımız hər şeyi vaxtında yerinə yetirəcək. Siz artıq komandalarımızın intensiv görüşlərini qeyd etdiniz. Ötən ilin dekabrında bizim Baş nazirin müavini Xocayevlə görüşlər olub. Bu yaxınlarda mən Mikayıl Cabbarovu qəbul etmişəm. Biz çox uzun müddət danışdıq və bütün məsələləri müzakirə etdik. Bu bizim münasibətlərimizin nəticəsidir ki, regionlar görüşür və belə işgüzar forumun keçirilməsi çox şeydən xəbər verir. Siz indi yeni layihələri qeyd etdiniz, sanki, sadəcə, görüşdük, amma buna çox ciddi hazırlaşırdıq. Layihələr 800 milyon dollar dəyərindədir. İlham Heydər oğlu, bu onu göstərir ki, əslində, bizim nəhəng potensialımız var.

Xüsusən regionların forumunu və biznes şurasının toplantısını qeyd etmək istəyirəm. Bu tədbirlərdə çoxlu sahibkar iştirak etdi. Mən qardaşlaşmış şəhərlərin - Daşkənd, Səmərqənd, Buxara, Xivə, Kokandın rəhbərləri ilə danışmışam. Onlara dedim: Biz görüşdük, sabah isə qardaşım İlham Heydər oğlu ilə görüşəcəyəm və onunla bunları danışacağıq. Onlar dedilər: Əmin ola bilərsiniz ki, müzakirə etdiyimiz bütün məsələlər yerinə yetiriləcək və həll olunacaq.

Tezliklə avtomobil istehsalı üzrə ciddi nəticələr olacaq. Bu, martda istehsalına başlanılacaq 3 min və sentyabrda buraxılacaq 7 min yeni marka avtomobillərdir. Bu, tamamilə başqa markadır, ayrı keyfiyyətdir. İkincisi, biz pambıq klasteri haqqında razılığa gəlmişik. Bizim hər iki komandamız artıq razılaşıb. Bunun üçün torpaq sahələri ayrılıb. Düşünürəm ki, biz burada danışdığımız nəticələri əldə edə bilərik. Bizdə ipəkçilikdə çoxlu problemlər var idi, lakin fikirləşirəm ki, onlar çox yaxşı həll olunur. Bizim ipəkçilik müəssisələrinin rəhbərləri mənə məruzə edirlər ki, onlar öz evlərində işləyirlər, deyirlər bizim üçün evdə bütün şərait yaradılıb. Biz məruzə etmişik ki, maşınqayırmada, həmçinin bütün məsələlər, preferensiyalar, parlament səviyyəsində həll olunur. Bu artıq onu göstərir ki, perspektivdə bizim bu sahələrdə də çoxlu birgə layihələrimiz olacaq.

Neft-qaz sahəsində SOCAR-la böyük layihə hazırlayırıq. Artıq layihənin texniki-iqtisadi əsaslandırması hazırlanır və düşünürəm ki, bu proses tədricən inkişaf etdiriləcək.

Düşünürəm ki, bizim bugünkü görüşümüz, Qoşulmama Hərəkatında iştirakımız faydalı olacaq. Xüsusi olaraq qeyd etmək istəyirəm ki, Azərbaycanın, şəxsən Sizin uğurlu sədrliyiniz ilə bu təşkilatın nüfuzu artıb. Birləşmiş Millətlər Təşkilatının vaksinlə bağlı xüsusi qətnaməsi qəbul edildi, hərəkatın parlament və gənclər strukturları yaradıldı. Fikrimcə, bu, Qoşulmama Hərəkatında Azərbaycanın tarixi sədrliyidir. Bütün dövlətlər həmin qətiyyəti, səyləri gördülər. Hazırkı mürəkkəb şəraitdə bu hərəkatın səviyyəsini yalnız Azərbaycan qaldıra bilər. Mən bu münasibətlə Sizi təbrik etmək istəyirəm. Bir daha Sizinlə görüşümüzə şadam. Düşünürəm ki, bizim fikir mübadiləsi aparmaq, komandalarımızı dinləmək üçün yaxşı imkanımız var.

**Prezident İlham Əliyev:** Sağ olun.

❖ ❖ ❖

Görüşdə ölkələrimiz arasında humanitar sahədə əməkdaşlıq məsələləri müzakirə olundu.

Şavkat Mirziyoyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının bu il 100 illiyinin qeyd edildiyini vurğuladı, bu xüsusda Özbəkistanda da tədbirlərin keçiriləcəyini bildirdi.

# *Əbdüllətif Camal RƏŞİD:* "Əməkdaşlığımızı genişləndirmək üçün yaxşı imkanlar mövcuddur"



Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, ölkəmizdə olmaqdan məmnunluğunu bildirən Əbdüllətif Camal Rəşid Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünə dəvətə görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

İraq Prezidenti Qoşulmama Hərəkatının indiki dövrdə beynəlxalq münasibətlərdə xüsusilə çox böyük rola malik olan bir təsisat olduğunu dedi.

Dövlətimizin başçısı İraq Prezidentinə ölkəmizə səfər etdiyinə görə təşəkkürünü bildirdi. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin başa çatmaq ərəfəsində olduğunu qeyd edən Prezident İlham Əliyev sədrlik dövründə ölkəmizin hərəkatın inkişafı naminə səylərini əsirgəmədiyini, onun təsisatlanması ilə bağlı bir sıra təşəbbüslər irəli sürdüyünü bildirdi, bu xüsusda hərəkatın parlament və gənclər şəbəkəsinin yaradılmasını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının 3-cü Zirvə toplantısının da ölkəmizdə keçirildiyini vurğuladı.

Prezident İlham Əliyev Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilmiş sammitində iştirakını məmnunluqla xatırlatdı, Azərbaycanın Ərəb dövlətləri ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini bildirdi.

İraq Prezidenti ölkəsinin Azərbaycanla münasibətləri daha da möhkəmləndirməkdə maraqlı olduğunu dedi, əməkdaşlığımızı genişləndirmək üçün yaxşı imkanların mövcudluğunu qeyd etdi.

Əbdüllətif Camal Rəşid İraqın üzləşdiyi problemlər və təhlükəsizliyə təhdid yaradan hallar barədə məlumat verdi, ölkəsinin artıq sabitlik mərhələsinə qədəm qoyduğunu bildirdi.

Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq təşkilatlarda yaxından əməkdaşlıq etməsi üçün geniş imkanların olduğunu bildirdi və bu xüsusda OPEC+ və digər formatlar qeyd edildi.

Dövlətimizin başçısı pandemiya dövründə Azərbaycanın Qoşulmama Hərəkatına üzv dövlətlərə, həmçinin İraqa humanitar dəstək göstərdiyini vurğuladı.

Azərbaycan Prezidenti İraq dövlətinin başçısını ölkəmizə həmçinin rəsmi səfərə dəvət etdi. Əbdüllətif Camal Rəşid dəvəti məmnunluqla qəbul edərək, öz növbəsində dövlətimizin başçısını İraqa səfərə dəvət etdi.

Söhbət əsnasında dövlət başçıları sərmayələr, enerji, tikinti, nəqliyyat, təhsil sahələrində əməkdaşlıq məsələlərini müzakirə etdilər, ikitərəfli iqtisadi ticarət balansının genişləndirilməsinin və işgüzar dairələrin nümayəndə heyətlərinin səfərlərinin təşkil olunmasının əhəmiyyətini vurğuladılar.

## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2005-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2023-cü il*

## "İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 mart tarixli 1304 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İşğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində idarəetmə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 mart tarixli 1304 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 228) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bəndə "tikinti" sözündən sonra ", yer təkinin geoloji öyrənilməsi və faydalı qazıntı yataqlarının istismarı, habelə faydalı qazıntıların çıxarılması ilə əlaqəli olmayan yeraltı qurğuların tikilməsi və istismarı" sözləri əlavə edilsin.

2. 1.3-cü bəndə "tikinti" sözündən sonra "və faydalı qazıntı yataqlarının istismarı" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2023-cü il*

# Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana səfərə gəlib

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev martın 1-də Azərbaycan Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# İraq Prezidenti Əbdüllətif Camal Rəşid Azərbaycana səfərə gəlib

**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid martın 1-də Azərbaycan Respublikasına səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Prezidentini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

# Liviyanın Prezident Şurasının Sədri Azərbaycana səfərə gəlib

**Liviyanın Prezident Şurasının Sədri Məhəmməd Yunis Əl-Mənfi martın 1-də Azərbaycan Respublikasına səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Liviyanın Prezident Şurasının Sədrini Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.



# *Cahit BAĞÇI:* "Bu kədərli günümüzdə ilk dəqiqələrdən Azərbaycan dövləti, xalqı yanımızda oldu"

Fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra ilk yardım edən ölkə qardaş Azərbaycan olub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı jurnalistlərə müsahibəsində deyib.

"Azərbaycan xilasediciləri 22 gündür ki, zəlzələ bölgələrimizdə gecə-gündüz, axtarış-xilasetmə işlərini fasiləsiz aparıblar. Türkiyəyə yollanan ən böyük axtarış-xilasetmə qüvvələri qardaş Azərbaycandan olub və çoxlu sayda vətəndaşımızı binaların altından çıxarıblar. Eyni zamanda səhra xəstəxanalarında müalicə ediblər. Azərbaycan yalnız xilasedicilərlə deyil, texniki təminatla, o cümlədən it, generator, çadır və qızdırıcı kimi bir çox təchizatı da təyyarələrlə zəlzələ bölgələrinə göndərib. Xilasetmə işlərinə böyük töhfə veriblər.

Mən zəlzələ bölgəsində fəaliyyət göstərən bütün qardaşlarımıza təşəkkür edirəm. Biz tarixin müxtəlif dönəmlərində - sevincdə, kədərdə bir-birimizin yanında olmuşuq, bu kədərli günümüzdə də Azərbaycan dövləti, xalqı ilk dəqiqələrdən Türkiyənin yanında oldu", - deyə səfir qeyd edib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Kuba Respublikasının Vitse-prezidenti ilə görüşüb



**Martın 1-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı və rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanın Milli Məclisində salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova bu səfərin ölkələrimiz və xalqlarımız arasındakı dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimiz arasında siyasi əlaqələr yaxşı səviyyədədir. Azərbaycanla Kuba beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatında bir-birini həmişə qarşılıqlı şəkildə dəstəkləyirlər.

Spiker qeyd edib ki, Kuba Respublikasının Prezidenti Miqel Dias-Kanel Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilmiş 18-ci Zirvə Görüşündə şəxsən iştirak edib və siz də Bakıda keçiriləcək Qoşulmama Hərəkatının Təmas Qrupunun növbəti Zirvə görüşündə iştirak edəcəksiniz.

Söhbət zamanı Milli Məclisin Sədri Kubanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində irəli sürdüyü təşəbbüsləri dəstəkləməsini, eyni zamanda Azərbaycanın da BMT çərçivəsində keçirilən səsvermələr zamanı Kubanın mövqeyini dəstəkləməsini qeyd edib. Spiker COVID-19 pandemiyasının ağır dövründə də ölkələrimizin bir-birinə kömək etdiyini, kubalı həkimlərin həmin dövrdə ölkəmizə göstərdiyi dəstəyin Azərbaycanda yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, ifadə edib ki, ölkələrimiz arasında iqtisadiyyat, ticarət, elm, təhsil, mədəniyyət, idman, turizm və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün yaxşı potensial mövcuddur və bu imkanlardan yararlanmaq lazımdır.

Ölkələrimiz arasında olan əlaqələrin inkişafında parlamentlərimizin özünəməxsus rolundan danışan spiker Sahibə Qafarova hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, dostluq qrupları qarşılıqlı səfərlər, müntəzəm dialoq vasitəsilə parlamentlərimiz arasında körpü rolunu oynaya bilərlər.

İki ölkənin qanunvericilik orqanları arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan danışan spiker bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının hazırkı Sədri İlham Əliyevin təşəbbüsü ilə Hərəkatın Parlament Şəbəkəsi yaradılıb. Şəbəkənin təsis toplantısı 2021-ci ilin noyabrında Madrid şəhərində keçirilib. Bu toplantıda Kuba parlamentinin üzvü də iştirak edib. Şəbəkənin birinci konfransı isə 2022-ci ilin 30 iyun-1 iyul tarixlərində Bakıda keçirilib. Bu konfransda isə Kuba Respublikası Xalq Hakimiyyəti Milli Assambleyasının sədr müavini Ana Mariya Mari Maçado iştirak edib. Milli Məclisin Sədri Kuba parlamentinin Parlament Şəbəkəsinin işində fəal iştirakının yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, əlavə edib ki, hazırda şəbəkənin Bəhreynin paytaxtı Manama şəhərində Parlamentlərarası İttifaqın 146-cı Assambleyası çərçivəsində keçiriləcək ikinci konfransına hazırlıq işləri davam edir.

Görüşdə Milli Məclisin Sədri qonaqlara Azərbaycanın 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış və 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi nəticəsində azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılması prosesi, işğal dövründə Ermənistanın həmin ərazilərdəki bütün şəhərlərimizi, kəndlərimizi, tarixi, mədəni, dini abidələrimizi yerləyeksan etməsi, mina problemi barədə məlumat verib. Spiker qeyd edib ki, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin təşəbbüskarı məhz Azərbaycan olmasına və 5 əsas prinsip əsasında sülh sazişinin imzalanmasını təklif etməsinə baxmayaraq, Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir və üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozmaqda davam edir. Ermənistan iki ildən artıqdır ki, Laçın yolundan hərbi məqsədlər üçün istifadə edir, mina, sursat, canlı qüvvə və talan edilmiş təbii sərvətlərin daşınması ilə məşğuldur. Buna cavab olaraq Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri və ekofəallar Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirirlər. Laçın yolu mülki məqsədlər üçün tam açıqdır və heç bir humanitar böhrandan söhbət gedə bilməz.

Ermənistan yalan məlumatlarla məsələnin mahiyyətini təhrif etməyə və beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Görünən odur ki, Ermənistan "blokada", "gərgin humanitar vəziyyət" kimi yalan təbliğatla Laçın yolundan qeyri-qanuni məqsədlər üçün istifadəni davam etdirməkdə maraqlıdır. Ermənistan bu cür destruktiv davranışlarından çəkinməli və sülh sazişinin imzalanması üçün real addımlar atmalıdır. Azərbaycan sülh və sabitlik istəyir.

Görüş üçün təşəkkürünü bildirən Kuba Respublikasının Vitse-prezidenti Salvador Antonio Valdes Mesa Azərbaycan Prezidenti İlham Əliyevlə dünən keçirdiyi görüş və apardığı danışıqlar barədə təəssüratlarını bölüşüb. O, Bakıda keçiriləcək Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşünə uğurlar arzulayıb.

Qonaq diqqətə çatdırıb ki, Kuba qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsində və genişləndirilməsində maraqlıdır. Kuba bu ildən G77-yə sədrlik edir. Azərbaycanın isə Qoşulmama Hərəkatına sədrliyi daha bir il uzadılıb. O, bu iki təşkilata rəhbərlik edən ölkələrimizin qarşılıqlı əməkdaşlıq imkanlarından danışıb.

Vitse-prezident Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə irəli sürdüyü təşəbbüsləri yüksək qiymətləndirib. O, Kuba və Azərbaycan arasında parlamentlərarası, səhiyyə, iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi barədə fikirlərini bölüşüb, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Kubalı qonaq həmçinin qeyd edib ki, Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsi tam ədalətlidir. O, ölkəsinin illər ərzində blokadaya məruz qaldığını, amma Kuba xalqının mübarizə və azadlıq əzminin heç vaxt tükənmədiyini bildirib. Vitse-prezident BMT Baş Assambleyasında Kuba ilə əlaqədar təqdim olunan qətnamələrə göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü ifadə edib.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Azərbaycan-Kuba parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elşad Mirbəşir oğlu, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, hər iki ölkənin səfirləri Ruslan Rzayev və Karlos Enrike Valdes de la Konsepsyon və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib

**Martın 1-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Sadiq Qurbanov bildirib ki, gündəliyə bir məsələ - "Elektroenergetika haqqında" yeni qanun layihəsinin ikinci oxunuşda müzakirəsi daxil edilib.

Qanun layihəsinin birinci oxunuşda müzakirəsi və deputatlar tərəfindən qaldırılan sualların cavablandırılması barədə danışan komitə sədri sənədin Azərbaycanın elektroenergetika sahəsinin inkişafına, özəl investisiyalar üçün şəraitin, rəqabət mühitinin formalaşmasına, eyni zamanda energetika sistemində səmərəliliyin artırılmasına, istehlakçıların mənafeyinin, məhsul və xidmətlərin keyfiyyətinin təmin olunmasına xidmət edəcəyini bildirib. Layihəni enerji sektorunun yeni mərhələyə hazırlanması kimi xarakterizə edən komitə sədri, onun daha dayanıqlı, səmərəli və keyfiyyətli enerji istehsalına şərait yaradacağını, habelə təmiz ətraf mühit, enerjinin diversifikasiyası, yaşıl iqtisadiyyat kimi strateji inkişaf prioritetlərinə də uyğun olduğunu diqqətə çatdırıb. Qanun layihəsinin müzakirəsində komitə sədrinin müavini Asim Mollazadə, üzvləri Naqif Həmzəyev, İltizam Yusifov, Nəsib Məhəməliyev çıxış ediblər. Deputatlar qanun layihəsini gələcəyə yönəlik yanaşma kimi dəyərləndiriblər, sənədin istehlakçılara gətirəcəyi faydalar, ölkəmizdə energetikanın inkişafına və ixrac potensialının artmasına göstərəcəyi təsirlər haqqında fikirlərini bölüşüblər, qeydlərini səsləndiriblər.

Müzakirələrin sonunda "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi (ikinci oxunuş) baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Milli Məclisdə ictimai dinləmə keçiriləcək

Martın 3-də parlamentdə Milli Məclisin İnsan hüquqları komitəsinin təşkilatçılığı ilə "Dağları aşarkən: Qərbi Azərbaycana dinc və hüquqi qayıdış" mövzusunda ictimai dinləmə keçiriləcək.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dinləmədə Milli Məclisin deputatları, alim və tədqiqatçılar, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edəcəklər.

Tədbirdə iştirakçılar soydaşlarımızın doğma ata-baba yurdlarına - Qərbi Azərbaycana dinc qayıdışı barədə öz fikirlərini bölüşəcək və təkliflərini verəcəklər.

***"Azərbaycan"***

# Baş nazirin müavini Şahin Mustafayev Tanzaniyanın Vitse-prezidenti ilə görüşüb

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev martın 1-də Tanzaniya Birləşmiş Respublikasının Vitse-prezidenti Filip İsdor Mpanqo ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşünün əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə Tanzaniya arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı müzakirələr aparılıb.

# Azərbaycanla Efiopiya arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfərdə olan Efiopiya Federativ Demokratik Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Demeke Mekonnen ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər iqtisadi, ticarət və humanitar sahələrdə ölkələrimiz arasında əməkdaşlığın perspektivlərini müzakirə ediblər. Müntəzəm qarşılıqlı səfərlərin və xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələrin keçirilməsinin əhəmiyyətli olduğunu bildiriblər.

Tərəflər beynəlxalq təşkilatlarda, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın əhəmiyyətini və bu təşkilatlar çərçivəsində, xüsusən ərazi bütövlüyü və suverenliyi ilə bağlı qarşılıqlı dəstəyin vacibliyini vurğulayıblar. Nazir Ceyhun Bayramov Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 illik işğal dövrü, habelə postmünaqişə zamanı ölkəmiz tərəfindən görülən işlər barədə qarşı tərəfə məlumat verib.

Görüşdə eyni zamanda digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İlkin müzakirələr aparılıb

Milli Məclisin deputatı Ramin Məmmədov Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qismində müəyyən edilib.

AZƏRTAC xəbər verir ki, bu məqsədlə martın 1-də Ramin Məmmədov Xocalı şəhərində, Azərbaycan Respublikası ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin qərargahında Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb. Görüşdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət, təbii sərvətlərin qanunsuz istismarını araşdıran monitorinq qrupunun rəhbəri Məsim Məmmədov da iştirak ediblər. Görüşdə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar davam etdiriləcək.

İctimaiyyətə əlavə məlumat veriləcək.

# FHN-in Türkiyədə olan çevik xilasetmə qüvvələrinin bir hissəsi ölkəmizə qayıdıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə qardaş ölkədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələrinin bir hissəsi bu gün təyyarə ilə ölkəmizə qayıdıb.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda xilasediciləri Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı və səfirliyin əməkdaşları, media və ictimaiyyət nümayəndələri qarşılayıblar. Səfir Cahit Bağçı Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinin zəlzələ bölgəsindəki fəaliyyətinin yüksək qiymətləndirildiyini bildirib, göstərilən dəstəyə görə Azərbaycan dövləti və xalqına təşəkkür edib.

# Azərbaycan könüllüləri zəlzələ bölgəsindəki zərərçəkən ailələrin və uşaqların qayğısına qalırlar

Türkiyədəki zəlzələdən sonra qardaş ölkəyə yardım məqsədilə yollanan azərbaycanlı gənclər yerli sakinlərin ən böyük dəstəkçilərindən birinə çevrilib. Azərbaycanlı könüllü gənclər harada onların dəstəyinə ehtiyac varsa, dərhal həmin düşərgələrə, çadırlara, səyyar məntəqələrə, habelə ucqar kəndlərə gedir, yerli sakinlərə humanitar fəaliyyətlərin çatdırılmasında fəal şəkildə iştirak edirlər.



Gənclər Fondundan AZƏRTAC-a bildirilib ki, eyni zamanda Azərbaycan könüllüləri fəlakətdən zərər görmüş bölgələrdəki çadır şəhərciklərində, eləcə də ucqar kəndlərdə yaşayan ailələrə mütəmadi olaraq qida, geyim, dərman, gigiyenik vasitələr və müxtəlif yardımlar paylayır, zəlzələdən zərərçəkən ailələrin qayğısına qalır.

Zəlzələdən ən çox təsirlənənlərin uşaqlar olduğunu nəzərə alaraq, azərbaycanlı könüllülər uşaqları daima diqqətdə saxlayır, türkiyəli həmkarları ilə birlikdə onların inkişafı üçün müxtəlif fəaliyyətlər həyata keçirirlər. Belə ki, gənclərimiz üç həftədir fəlakətdən zərər görmüş Kahramanmaraş, Hatay, Adıyaman və Malatya bölgələrindəki çadır şəhərciklərində yaşayan həssas vəziyyətdəki uşaqlara xidməti davam etdirir. Könüllülərimiz zərərçəkmiş uşaqların reabilitasiyası və asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi çadırlar quraşdırır, habelə təbii fəlakət zamanı keçirdikləri sarsıntıları, yaşadıqları travmaları minimuma endirmək üçün uşaqlara qayğı və psixoloji dəstək xidməti göstərir, eləcə də uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə müxtəlif oyunlar və digər əyləncəli-maarifləndirici fəaliyyətlər təşkil edirlər. Həmçinin gənclərimiz tərəfindən "uşaq və ana mərkəzi" kimi fəaliyyət göstərən çadırlar qurulur və bu mərkəzdə uşaqlara və analarına xidmət göstərməklə yanaşı, uşaqlara kino və cizgi filmlərinin göstərilməsi üçün də şərait yaradılır.

Qardaş ölkədəki bu çətin günlərdə zəlzələdən zərərçəkənlərə xidmət etmək, ailələrə dəstək göstərmək, xüsusilə də travma almış uşaqların qayğısına qalmaq, onların qəlblərini isitmək çox vacib bir missiyadır. Gənclərimizin həmin bölgələrdə xidməti müddətində Azərbaycan könüllülərinə həm yerli sakinlərin, həm də çoxsaylı yüksəksəviyyəli rəsmilərin şəxsən görüşərək onlara minnətdarlıq etməsi, gənclərimizin zəlzələ bölgəsindəki fəaliyyətini yüksək qiymətləndirməsi, könüllülərimizin bu şərəfli missiyanı uğurla həyata keçirdiyinə və Azərbaycan xalqını qardaş ölkədə yüksək səviyyədə təmsil etdiyinə dəlalət edir.

# QMİ sədrinin ABŞ-nin Yuta ştatına səfəri davam edir

Xəbər verildiyi kimi, fevralın 28-dən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə Azərbaycanın nümayəndə heyəti ABŞ-nin Yuta ştatında rəsmi səfərdədir.



Amerika Birləşmiş Ştatlarının tanınmış "Stirlinq" Fondunun, eləcə də İsa Məsih və Sonuncu Günün Müqəddəsləri kilsəsinin birgə dəvətilə təşkil olunan səfərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, Dağ Yəhudiləri dini icmasının sədri Melix Yevdayev, Alban-udi xristian dini icmasının sədri Robert Mobili, Roma katolik kilsəsinin Azərbaycandakı nümayəndəsi Vladimir Fekete və başqaları iştirak edirlər.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfərin məqsədi Azərbaycanın əsrlər boyu formalaşdırdığı və inkişaf etdirdiyi tolerantlıq, dini dözümlülük, müxtəlif inanclar və onların daşıyıcıları arasında birgəyaşayış normalarının təbliği, birgə fəaliyyət istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanların axtarışıdır.

Səfərin ilk günü azərbaycanlı qonaqlar Yuta ştatının ali qanunvericilik orqanı olan Senatda olublar. Burada ilk görüş "Stirlinq" Fondunun prezidenti və baş icraçı direktoru Edvard Rove ilə keçirilib. E.Rove Azərbaycanı yaxşı tanıdığını və burada fərqli dini icmaların birgə fəaliyyəti, dövlətin onlar üçün yaratdığı əlverişli şəraiti, dövlət orqanları ilə Qafqaz Müsəlmanları İdarəsinin bu sahədə səmərəli fəaliyyətini vuğulayaraq bildirib ki, dini müxtəliflik və tolerantlıq baxımından Azərbaycan Respublikası ilə Yuta ştatı arasında olan yaxın əlaqələr xalqlarımız və dövlətlərimiz arasında əlaqələri genişləndirməklə dünyada örnək olaraq qalmaqdadır.

Sonra Yuta ştatının Senatında Azərbaycan nümayəndə heyətini rəsmi salamlama mərasimi keçirilib və senatorlar qonaqları alqışlarla qarşılayıblar. Mərasimdə Yuta ştatı Senatının Azərbaycanda tolerantlıq, multikulturalizm siyasəti, dini müxtəlifliyin qorunması ilə bağlı qəbul etdiyi bəyannamənin mətni oxunub. Senatın prezidenti Stüart Adamsın və senator Mihael MakKellin imzaladığı sənəddə deyilir: "Yuta ştatının Senatı bəyan edir ki, Azərbaycan müsəlmanlar, xristianlar və yəhudilər arasında qədim zamanlardan bəri mövcud olan dinlərarası tolerantlıq ənənəsinə sadiq qalaraq ölkədə multikulturalizm və dinlərarası harmoniyanı daha da inkişaf etdirmək üçün səy göstərir. Asiya ilə Avropanın kəsişməsində yerləşən Azərbaycan region və bütün dünya üçün model olaraq çıxış edir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Qafqaz Müsəlmanları İdarəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsləri və iştirakı ilə Yer üzündə dini rəngarəngliyi qorumaq və inkişaf etdirmək, əməkdaşlıq üçün dünyanın fərqli konfessiyalarının liderlərini dəfələrlə bir araya gətirə biliblər. Yuta ştatı Şeyxülislam Allahşükür Paşazadəni, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovu, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyevi, dini icma rəhbərlərini və digər qonaqları Senatda salamlamaqdan şərəf duyur. Biz bir daha bəyan edirik ki, Yuta Senatı Azərbaycanın dini tolerantlığı və dinlərarası əməkdaşlıq dəyərlərini möhkəmlətmək istiqamətində apardığı işi təqdir edir".

Sonra Yuta ştatı Senatının prezidenti Stüart Adams Azərbaycan nümayəndə heyəti ilə geniş tərkibdə görüş keçirib. Görüşdə bildirib ki, Azərbaycanla digər sahələrdə olduğu kimi, dinlərarası münasibətlərin möhkəmləndirilməsi istiqamətində əməkdaşlıq hər iki ölkə üçün faydalıdır. Yuta ştatı Azərbaycan Respublikası ilə əlaqələri, səmimi dostluq münasibətlərini inkişaf etdirməkdə maraqlıdır və bunun üçün kifayət qədər zəmin vardır. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə səmimi qəbul üçün S.Adamsa minnətdarlığını bildirərək, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin salamlarını çatdırıb və qeyd edib ki, Yuta ilə əlaqələrin genişlənməsi üçün kifayət qədər zəmin vardır. Təsadüfi deyildir ki, Yuta ABŞ-nin ştatları arasında Xocalı soyqırımını ilk tanıyanlar sırasındadır. Bundan başqa, 44 günlük müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə Azərbaycanın dinc quruculuq və bərpa işlərinə mane olan minlərlə partlamamış minanın zərərsizləşdirilməsində də yutalıların böyük yardımı olub. Şeyxülislam Allahşükür Paşazadə Yuta Senatının prezidentini Azərbaycana səfərə dəvət edib.

Səfər davam edir.

# Heydər Əliyev adına Hərbi İnstitutun 105 illiyi qeyd olunub

Martın 1-də Heydər Əliyev adına Hərbi İnstitutun 105 illiyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Müdafiə Nazirliyinin rəhbər heyəti iştirak edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi institutun ərazisində yeni istifadəyə verilən idman kompleksində yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, kompleksdə kursantların fiziki hazırlığının daha da yaxşılaşdırılması, eləcə də idmanın bütün növü ilə məşğul olmaları üçün hər cür şərait yaradılıb.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.

İnstitutun rektoru general-mayor Fizuli Salahov institutun tarixi, əsas fəaliyyət istiqamətləri, eləcə də məzunların əldə etdikləri nailiyyətlər barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, institutun məzunlarının qəhrəmanlığı hər zaman yüksək qiymətləndirilib, ölkə rəhbərliyi tərəfindən onlardan 7 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı", 46 nəfəri "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 43 nəfər məzun isə "general" ali hərbi rütbəsinə qədər yüksəlib.







Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə orduda aparılan islahatlardan, peşəkar kadr hazırlığının əhəmiyyətindən, hərbi təhsil sahəsində görülən işlərdən danışıb. Ən qabaqcıl orduların müasir, yeni nəsil silah və hərbi texnikasının Azərbaycan Ordusunun arsenalına daxil edilməsinin birbaşa Ali Baş Komandanın şəxsi nəzarətində olduğu diqqətə çatdırılıb. Vahid mərkəzdən operativ idarəetmə sisteminin yaradılmasının, yüksək döyüş qabiliyyətinə malik yeni komando hərbi hissələrinin mövcudluğunun orduda davam edən islahatların nəticəsi olduğunu qeyd edən nazir ordu quruculuğunda daim yeni yanaşmaların, daha səmərəli metod və üsulların, müasir hərbi innovasiyaların tətbiq edildiyini bildirib.

Vətən müharibəsində qazanılan Qələbənin tarixi əhəmiyyətini diqqətə çatdıran nazir Hərbi institutun yetirmələrinin də döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrinin Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib.

İnstitutda hərbi mütəxəssislərin hazırlıq proqramının Türkiyənin Milli Müdafiə Universitetinin hərbi məktəblərində tətbiq olunan proqramlara uyğunlaşdırılmasının Azərbaycan Ordusunda peşəkar zabit kadrların hazırlanması istiqamətində atılan mühüm addımlardan biri olduğu qeyd edilib.

General-polkovnik Zakir Həsənov kursantlara tədrisdə və gələcək xidmətlərində uğurlar arzulayıb, hərbi təhsil sisteminin daha keyfiyyətli və yüksək səviyyədə təşkili üçün aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonra müdafiə naziri kursantlarla birgə nahar edib, onların qayğıları ilə maraqlanıb və suallarını cavablandırıb.

# Ceyhun Bayramov BMT sessiyasında Qoşulmama Hərəkatı adından videomüraciətlə çıxış edib



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyasının yüksəksəviyyəli seqmenti çərçivəsində keçirilmiş "İnkişaf Bəyannaməsinin 35-ci ildönümü münasibətilə yüksəksəviyyəli tədbir"də Qoşulmama Hərəkatı (QH) adından açılış nitqi ilə videomüraciətlə çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, sözügedən tədbir Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfinin təşəbbüsü ilə irəli sürülmüş və İnsan Hüquqları Şurasının 49-cu sessiyasında qəbul olunmuş 49/8 saylı qətnaməsinə uyğun olaraq, QH-nin Azərbaycan sədrliyi ilə birlikdə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı tərəfindən təşkil olunub.

Nazir Ceyhun Bayramov çıxışında QH adından tədbirin təşkilində əməkdaşlığa görə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına təşəkkürünü bildirib, 35-ci ildönümü qeyd olunan bəyannamənin "inkişafı" insan hüququ kimi müəyyən etdiyini vurğulayıb. Bununla belə, inkişaf hüququnun 1993-cü ildə qəbul olunmuş Vyana Bəyannaməsi və Fəaliyyət Planında da yekdil olaraq müstəqil insan hüququ kimi tanınmasına baxmayaraq, onun konsepsiyasının yanlış təfsiri cəhdləri və bölücü beynəlxalq diskursun müşahidə olunduğunu qeyd edib.

COVID-19-a qarşı peyvəndlərin dünya üzrə qeyri-bərabər bölüşdürülməsinin geniş iqtisadi və sosial xərclərinin və bununla bağlı pandemiyadan bərpa mərhələsində dövlətlər üzrə fərqli vəziyyətlərin inkişaf perspektivləri və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmanı daha da geriyə atdığını bildirib.

Bundan başqa, çoxtərəfli təsisatların rolunun zəifləndilməsi, pandemiyadan sonra bərpa proseslərinin ləng getməsi, iqlim dəyişikliklərinin mənfi təsirlərinin mövcud qeyri-bərabərliklər üzrə xoşniyyətli dialoqu daha da zəruri etdiyini diqqətə çatdırıb.

Bu səbəbdən QH üzv ölkələrinin bu tədbirə önəm verdiyini və Bəyannamənin 10-cu bəndinə istinadən, inkişaf hüququnun həyata keçirilməsində beynəlxalq ictimaiyyətin birgə məsuliyyət daşıdığını xatırladıb. QH adından BMT qurumları və beynəlxalq maliyyə institutlarına onlar tərəfindən inkişaf hüququnun öz fəaliyyətlərinə daxil edilməsini tövsiyə edib. Bu xüsusda, həmçinin BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının mandatına istinadən, Ali Komissarlığın inkişaf hüququnu geniş BMT sistemi daxilində yayması ilə bağlı məsuliyyət daşıdığını xatırladıb.

Yüksəksəviyyəli tədbirdə həmçinin BMT Baş katibinin müavini, BMT dayanıqlı inkişaf qrupunun rəhbəri Amina Mohammed, BMT-nin İnsan hüquqları üzrə Ali komissarı Volker Türk, BMT İnkişaf Proqramının administratoru Açim Steiner, BMT Ticarət və İnkişaf Konfransının Baş katibi Rebeka Qrinspan və Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Gebreyesus açılış nitqləri ilə çıxış ediblər.

Tədbir yüksəksəviyyəli dövlət nümayəndələrinin çıxışları ilə davam edib.

# Xusrav Noziri Azərbaycanın İƏT-in fəaliyyətinə verdiyi töhfəni yüksək qiymətləndirib

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xusrav Noziri ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı İƏT-də 2023-cü il ərzində Azərbaycanın sədrliyi dövründə təşkilatın strategiya və proqramlarının icrası məsələləri, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi, İƏT çərçivəsində əməkdaşlıq məsələləri müzakirə mövzusu olub.

Nazir Ceyhun Bayramov Azərbaycanın İƏT-in 2023-cü il üzrə "Yaşıl keçid və qarşılıqlı bağlantılar" mövzusuna həsr olunan sədrliyi çərçivəsində prioritet və planları, ölkəmizin evsahibliyi ilə təşkil edilməsi planlaşdırılan tədbirlərin həyata keçirilməsi və sədrliyimizdən irəli gələn digər öhdəliklərin icrası barədə qarşı tərəfə ətraflı məlumat verib. Ölkəmizin bir sıra İƏT üzv dövlətləri ilə geniş əməkdaşlıq əlaqələrinə malik olduğu, həmçinin beynəlxalq platformalarda, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət həyata keçirildiyi diqqətə çatdırılıb.

Ceyhun Bayramov ölkəmizin enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində apardığı işlər barədə danışıb, Mərkəzi Asiya və Cənubi Qafqazdan keçməklə nəqliyyat marşrutlarının əhəmiyyəti, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən işləri diqqətə çatdırıb.

Görüş zamanı nazir Ceyhun Bayramov postmünaqişə dövründə Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərindən bəhs edib.

Baş katib Xusrav Noziri Azərbaycanın İƏT-in fəaliyyətinə verdiyi töhfəni və 2023-cü il üzrə sədrliyini yüksək qiymətləndirib, enerji və iqtisadi bağlılıq məsələlərinin İƏT-in gündəliyində duran əsas məsələlər olduğunu, Azərbaycanın bu sahələrdə rolunun vacibliyini vurğulayıb. Həmçinin təşkilatın gələcək fəaliyyət istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əməkdaşlığının prioritet istiqamətləri müzakirə edilib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda keçiriləcək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı xarici işlər nazirinin müavini Valid bin Abdulkərim Əl-Xureyci ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında tarixi və dini cəhətdən bir çox ortaq cəhətlərin olduğu vurğulanaraq Azərbaycanın bu əlaqələrin inkişafına və müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyi diqqətə çatdırılıb.

Diplomatik əlaqələrin qurulmasından ötən 30 il müddətdə iki ölkə arasında münasibətlərin müsbət dinamika ilə inkişaf etdiyi qeyd edilərək bu gün ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olmasından məmnunluq ifadə olunub. Bu xüsusda, ali və yüksəksəviyyəli təmasların, o cümlədən qarşılıqlı səfərlərin əhəmiyyətindən bəhs edilərək bu kimi təmasların münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına zəmin yaratdığı bildirilib.

Görüşdə iki ölkə arasında ikitərəfli tərəfdaşlıqla yanaşı, regional və beynəlxalq formatlarda faydalı əməkdaşlığın mövcud olduğunu vurğulayan nazir Ceyhun Bayramov beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini diqqətə çatdırıb. Bu xüsusda, Səudiyyə Ərəbistanının, xüsusilə də BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyi yüksək qiymətləndirilib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri kimi enerji, kənd təsərrüfatı, turizm, alternativ enerji sahələrində mövcud əməkdaşlıq imkanlarından bəhs edib, qeyd olunan sahələr üzrə birgə uğurlu layihələrin həyata keçirildiyini, bu işlərin genişləndirilməsi üçün geniş perspektivlərin olduğunu vurğulayıb. Görüşdə, həmçinin Azərbaycanın Ermənistanla sülh prosesi istiqamətində atdığı addımlar və təşəbbüslər, işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri, həyata keçirilən irimiqyaslı layihələr barədə qarşı tərəf məlumatlandırılıb.

Nazir Ceyhun Bayramov ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyindən bəhs edərək COVID-19 üzrə Qoşulmama Hərəkatının Əlaqə Qrupu Zirvə görüşünün əhəmiyyətini vurğulayıb.

Görüşdə tərəflər həmçinin ikitərəfli və regional əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında fikir mübadiləsi aparıb.

# Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışla bağlı məlumatlandırılıb

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü çərçivəsində ölkəmizdə səfərdə olan Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan Respublikası və Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlıq əlaqələrinin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib, beynəlxalq miqrasiya gündəliyində duran məsələlər və bu sahədə gələcək əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanın Beynəlxalq Miqrasiya Təşkilatı ilə əlaqələrinin inkişafına əhəmiyyət verdiyini bildirən nazir Ceyhun Bayramov ölkənin uğurlu miqrasiya siyasəti və bu sahədə aparılmış institusional islahatlar nəticəsində Azərbaycanda miqrasiya məsələlərinin effektiv şəkildə tənzimləndiyini vurğulayıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq və yenidənqurma işləri haqqında ətraflı məlumat verib, məcburi köçkünlərin doğma yurdlarında dayanıqlı məskunlaşmasının təmin edilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirib. Bu xüsusda, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" və onun tədbirlər planına uyğun olaraq qarşıda duran məsələlərin icrası haqqında ətraflı söhbət aparılıb.

Həmçinin BMqT-nin qaçqın və məcburi köçkünlərə dəstək tədbirlərində iştirakı, bu sahədə birgə əməkdaşlıq imkanları müzakirə olunub.

İkitərəfli əməkdaşlığın uğurla davam etdiyini bildirən Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino Azərbaycanda miqrasiyanın idarə olunması sahəsində görülən işləri alqışlayıb və rəhbərlik etdiyi təşkilatın gələcəkdə də miqrasiya proseslərinin idarə olunması sahəsində Azərbaycan hökumətinə dəstəyin davam etdirilməsinə hazır olduğunu ifadə edib. Bu çərçivədə, təşkilatın regional təlim mərkəzinin təsis edilməsinin əhəmiyyətli addım olduğu vurğulanıb.

Görüşdə həmçinin nazir Ceyhun Bayramov Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyi çərçivəsində görülən işlər və təşəbbüslər barədə məlumat verib.

# Azərbaycanın və Səudiyyə Ərəbistanının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

Fevralın 28-də Bakıda Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Fariz Rzayev, Səudiyyə Ərəbistanı tərəfindən xarici işlər nazirinin müavini Vəlid bin Əbdülkərim Əl-Xureyci rəhbərlik edib.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi, enerji, humanitar, parlamentlərarası əlaqələr sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Səudiyyə Ərəbistanı tərəfinə bölgədə münaqişə sonrası mövcud olan vəziyyət, o cümlədən azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq, reinteqrasiya işləri barədə məlumat verilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycanın İrandakı səfirliyinə edilən hücumu törədənin müvafiq şəkildə cəzalandırılması vacibdir

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İran xarici işlər nazirinin iqtisadi diplomatiya məsələləri üzrə müavini Mehdi Səfəri ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşünün gündəliyi üzrə işlər, eləcə də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə xain terror hücumundan irəli gələn məsələlər müzakirə olunub. Nazir Ceyhun Bayramov Azərbaycanın İrandakı səfirliyinə edilən xain hücumu törədənin, təşkilatçı və sifarişçilərinin müəyyən edilməsi və onların müvafiq şəkildə cəzalandırılmasının vacib olduğunu bildirib.

"Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyası"ndan irəli gələn öhdəliklərin yerinə yetirilməsinin əhəmiyyətini bir daha vurğulayan nazir Ceyhun Bayramov diplomatik nümayəndəliklərin binalarının, habelə onun əməkdaşlarının hər cur hücumlardan qorunmasının təmin edilməsinin qəbul edən tərəfin vəzifəsi olduğunu diqqətə çatdırıb.

Nazir terror hücumunun təfərrüatlarının və videoçəkilişlərin incələndiyini, bu istiqamətdə istintaqın davam etdiyini, Azərbaycan tərəfində terrorla bağlı bir sıra mövcud sualların İran tərəfindən cavablandırılmasının zəruri olduğunu vurğulayıb.

# Ceyhun Bayramov Çin Hökumətinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Martın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Bakıda keçiriləcək Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə səfər edən Çin Xalq Respublikası Hökumətinin Avrasiya məsələləri üzrə xüsusi nümayəndəsi Li Xuey ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında siyasi, ticarət və iqtisadi, nəqliyyat əlaqələrinin yüksək inkişaf dinamikasını məmnunluqla qeyd edib, əməkdaşlığımızın qarşılıqlı maraq doğuran digər bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıblar. Ölkələrimiz arasında son illərdə həyata keçirilmiş yüksəksəviyyəli rəsmi səfərlərdən məmnunluq ifadə olunub.

Tərəflər iki ölkənin regionları və şəhərləri arasında əməkdaşlıq əlaqələrinin yaradılmasının, inkişaf etdirilməsinin və qarşılıqlı səfərlərin təşkil olunmasının vacibliyini qeyd ediblər.

Görüş zamanı Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının fəaliyyəti yüksək qiymətləndirilib.

Nazir Ceyhun Bayramov ölkələrimiz arasında nəqliyyat, tranzit və logistika sahəsində geniş əməkdaşlıq imkanları olduğunu, habelə Ələt Azad İqtisadi Zonasının və bu istiqamətdə sərmayələrin əməkdaşlığın inkişafı üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Tərəflər ölkələrimiz arasında müxtəlif sahələrdə həyata keçirilən əməkdaşlığın gələcək gündəliyini müzakirə edib, həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazir Ceyhun Bayramov həmsöhbətini Ermənistanın 30 il müddətində ərazilərimizin işğalının fəsadları, 2020-ci ildən sonra bölgədə mövcud olan postmünaqişə vəziyyəti, sülh quruculuğu istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri, habelə mövcud mina təhdidləri barədə məlumatlandırıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# İlham Əliyevin növbəti qlobal təşəbbüsü reallaşır

## Bakıda Qoşulmama Hərəkatının postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçirilir

**Bu gün Bakıda beynəlxalq problemlərin həllində müsbət rol oynayan və müasir dövrdə çoxqütblü, ədalətli və demokratik dünya düzəninin formalaşmasında yüksək potensiala malik olan Qoşulmama Hərəkatının postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçiriləcək.**

Bu toplantının keçirilməsi təşəbbüsü Qoşulmama Hərəkatının Sədri, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb. Azərbaycan Prezidenti hələ 2021-ci ildə Qoşulmama Hərəkatının yaradılmasının 60-cı ildönümünə həsr edilən Belqrad tədbirində postpandemiya dövrünün müzakirə edilməsi məqsədilə Hərəkata üzv ölkələrin yüksəksəviyyəli görüşünün keçirilməsi təklifi ilə çıxış etmişdi.

Təşkilata üzv olan dövlətlərin bu təşəbbüsü təqdir etmələri əlbəttə ki, Azərbaycanın növbəti dəfə qlobal məsələlərin müzakirə olunacağı mühüm toplantıya evsahibliyi etməsi, eyni zamanda ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir.

### Ərzaq təhlükəsizliyi və iqlim dəyişikliyi kimi məsələlərin müzakirəsi planlaşdırılır

Tədbirdə bir sıra Qoşulmama Hərəkatı ölkələrinin, müşahidəçi dövlətlərin və qonaq qismində dəvət edilən ölkələrin dövlət və hökumət başçılarının, digər rəsmilərinin, eləcə də beynəlxalq təşkilatların rəhbərlərinin iştirakı nəzərdə tutulur. Tədbirin əsas məqsədi postpandemiya dövründə aktual olan vacib məsələlərin müzakirə edilməsidir. Yəni mövzu təkcə pandemiya deyil, daha çox pandemiyadan sonrakı dünya məsələləridir. Hazırda yeni dünya düzəni formalaşır. Bu kontekstdə beynəlxalq sülh və təhlükəsizlik, beynəlxalq hüququn işləməməsi, beynəlxalq təşkilatların səmərəli olmaması, Şərq-Qərb ziddiyyətlərinin artması, "Soyuq müharibə" mentalitetinin hökm sürdüyü yeni dünya düzənində Qoşulmama Hərəkatı ölkələrinin yerinin müəyyənləşdirilməsi əsas müzakirə mövzuları olacaq.

Bundan əlavə, sammit zamanı BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səylərin gücləndirilməsi, ərzaq təhlükəsizliyi və iqlim dəyişikliyi kimi məsələlərin müzakirəsi də planlaşdırılır. Xatırladaq ki, Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar bəzi Qoşulmama Hərəkatı ölkələri ərzaq təhlükəsizliyi sahəsində daha ciddi təhdidlərlə üzləşməyə başlayıblar.

### Uğurlu sədrlik, qazanılan yüksək etimad

Qoşulmama Hərəkatı heç bir hərbi bloka qoşulmayan 120 dövləti özündə birləşdirir. Bu, BMT-dən sonra dünya ölkələrini bir araya gətirən ikinci böyük təşkilatdır. Hərəkata sədrlik müxtəlif regional qruplardan olan dövlətlər arasında üç ildən bir rotasiya edir. Müvafiq regional qrupdan namizədliyini təqdim etmiş dövlət təşkilatın sammiti vaxtı bütün üzv dövlətlərin razılığı ilə sədr seçilir. Sədr dövlət üçillik sədrlik müddətinin əvvəlində zirvə görüşünə və sədrliyinin axırıncı ilində nazirlər iclasına evsahibliyi edir. Ölkəmiz Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olub və 2019-cu ildən təşkilata sədrlik edir. Məhz həmin ildə Azərbaycan Qoşulmama Hərəkatının sammitinə uğurla evsahibliyi edib. Oktyabrın 25-də keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

Sammitdə Prezident İlham Əliyev vurğulayıb ki, ölkəmiz sədrliyi dövründə beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Sözü imzası qədər keçərli olan Azərbaycan Prezidenti Hərəkata rəhbərliyi dövründə bu prinsiplərə sadiq qaldı və bununla da üzv dövlətlərin İlham Əliyevin siyasətinə göstərdiyi etimad daha da yüksəldi. Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra Azərbaycanın quruma sədrlik etməsi üzv dövlətlərin ölkəmizə olan etimadının və Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, eləcə də respublikamızın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsinə çevrildi. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı təşviq etməsi dünya birliyi tərəfindən təqdir olundu.

### "Peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə

Azərbaycan təşkilata çətin bir dövrdə - COVID-19 pandemiyasının dünyanı təsir altına aldığı, bütün sahələrdə tənəzzül yaşandığı bir vaxtda sədrlik etməyə başlayıb. Ancaq ölkəmiz uğurlu sədrliyi ilə Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verib. Buna görə də Azərbaycanın sədrliyi təşkilatın təmsilçisi olan ölkələrin yekdil rəyi ilə daha bir il - 2023-cü ilin sonunadək uzadılıb.

Ölkəmizin təşkilata sədrliyinin qlobal pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq, çevik və səmərəli şəkildə öz sədrlik gündəliyini yeni reallığa uyğun həyata keçirib. Əlbəttə, bu prosesdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi də mühüm rol oynayıb. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Məhz Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi.

Qoşulmama Hərəkatının Sədri İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında təşkilatın pandemiya ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya baş tutdu. Eyni zamanda hərəkatın sədri kimi ölkəmiz "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

### Azərbaycanın təşəbbüsü ilə yaradılan şəbəkələr

Azərbaycanın sədrliyinin ən böyük uğurlarından biri də Hərəkatın təsisatlanması məsələsidir. Ölkəmizin sədrliyi dönəmində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatı təsis olunub. Ötən il iyunun 30-da Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransında Prezident İlham Əliyev bu şəbəkənin əhəmiyyətindən danışıb, təşkilata üzv ölkələr arasında həmrəyliyə töhfə verəcəyinə inamını ifadə edib.

Həmin konfransdan bir ay keçməmiş - iyulun 25-29-da Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı Gənclər Sammiti çərçivəsində hərəkatın 61 illik tarixində ilk dəfə olaraq Şuşada Qoşulmama Hərəkatına üzv ölkələrin gənclərini birləşdirən Gənclər Təşkilatı yaradıldı. Tarixə Şuşa Akkordu (Şuşa razılaşması) kimi düşən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılmasına dair sənədin qəbulu ilə ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın adı bu mötəbər qurumun tarixinə yazıldı. Sammitin Şuşa sessiyası çərçivəsində daimi katibliyi Bakıda yerləşəcək Qoşulmama Hərəkatının Gənclər Təşkilatının əsasnaməsi, təşkilatın loqosu və bayrağı təsdiqləndi. Gənclər Təşkilatı Qoşulmama Hərəkatına üzv dövlətlərin gənclər nümayəndələrinə cari çağırışlar haqqında fikir, baxış və perspektivlər mübadiləsi aparmaq və dövlətlərinin birgə cavabları vasitəsilə davamlı tərəqqiyə nail olmaq imkanı yaradır.

Prezident İlham Əliyev də Qoşulmama Hərəkatının müxtəlif toplantılarında çıxışında təşkilatın fəaliyyətini yüksək qiymətləndirib. Bu ilin fevralın 28-də Prezident İlham Əliyev Kuba Respublikasının vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə Qoşulmama Hərəkatını daha da inkişaf etdirmək üçün səylərini bundan sonra da davam etdirəcəyini bildirib. İlham Əliyev Azərbaycanın Hərəkatın beynəlxalq münasibətlərdə mühüm rol oynaması istiqamətində çalışdığını vurğulayaraq, dünyada postkovid dövrü ilə bağlı geniş müzakirələrə ehtiyac olduğunu vurğulayıb. Həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə yaxşı irs qoyduğunu qeyd edib.

Ümumiyyətlə, Qoşulmama Hərəkatının əsas məqsədi beynəlxalq hüququn norma və prinsipləri əsasında dünyada sülhün, təhlükəsizliyin qorunmasına və tərəqqiyə töhfə verməkdir. Eyni zamanda Hərəkat qlobal problemlərin həlli və müasir dövrün çağırışlarına cavab vermək baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə də güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in keçmiş Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur qalmalarını göstərmək olar. Ümumiyyətlə, 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb.

Zaman göstərir ki, Qoşulmama Hərəkatının nüfuzu getdikcə daha da artır. Üzv dövlətlərin də dəstəklədiyi kimi, Azərbaycanın sədrliyi dövrü daha uğurlu olmaqla yanaşı, mühüm töhfələrlə nəticələnib. Təsisatda Azərbaycanın təşəbbüsü ilə yeni şəbəkələr yaranıb ki, bunlar da həmrəyliyin və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində atılan addım kimi qiymətləndirilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Uğurlu sədrliyin dördüncü ili

## Azərbaycan Qoşulmama Hərəkatının nüfuzunu yüksək səviyyəyə qaldırıb

Ölkəmizdə Qoşulmama Hərəkatının (QH) postpandemiyaya həsr olunmuş sammit səviyyəli görüşü keçirilir. Tədbirdə bir sıra QH ölkələrinin, müşahidəçi dövlətlərin və qonaq qismində dəvət edilən ölkələrin dövlət və hökumət başçılarının, digər rəsmilərinin, eləcə də beynəlxalq təşkilatların rəhbərləri iştirak edəcəklər.





Azərbaycan QH-yə 2019-cu ildən uğurla sədrlik edir. Həmin ildə keçirilən sammitə uğurlu evsahibliyi ölkəmizə olan inamı və etimadı artırıb. Azərbaycanın COVID-19 pandemiyasının yayıldığı çətin zamanda sədrliyi Hərəkata üzv ölkələr tərəfindən yüksək qiymətləndirilib. Pandemiya dönəmindəki çətinliklərə baxmayaraq, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında QH-nin COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirilib. Ötən il isə Azərbaycanın sədrliyi dövründə təsis olunan Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı baş tutub.

Ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyinin nəticəsi göz önündədir. Dövlət rəsmiləri hesab edirlər ki, Azərbaycanın sədrliyi Hərəkatı daha da canlandırıb.

### İlham Əliyevin təşkilata sədrlik etməsi çox mühüm və müsbət tendensiya yaradıb

Milli Məclisin deputatı Arzu Nağıyev qəzetimizə açıqlamasında deyib ki, Qoşulmama Hərəkatı heç bir hərbi bloka daxil olmayan 120 dövlətin birləşdiyi və bir sıra təşkilatların müşahidəçi statusda çıxış etdiyi beynəlxalq təşkilatdır. Müşahidəçilər içində 17 ölkə, 10 beynəlxalq təşkilat, eyni zamanda 50-dən çox Afrika, 30-dan çox Asiya ölkəsi, həmçinin Latın Amerikası və Avropadan 20-dən çox təmsilçilər var: "Qoşulmama Hərəkatı mühüm platformadır və biz bunu 44 günlük müharibədə onların mövqelərindən, eyni zamanda Azərbaycanla bağlı atılan addımlarda gördük. Bu Hərəkat böyük bir arealda təmsil olunur".

Deputat vurğulayıb ki, məhz Azərbaycan Qoşulmama Hərəkatına sədrlik edəndən sonra qurumun nüfuzu daha da artıb. Bu danılmazdır. Prezidentin sədrliyi dövründə keçirilmiş sammitlərdə də dünya buna şahidlik edib.

Bakıda QH-nin bir neçə sammitinin keçirildiyini xatırladan A.Nağıyev qeyd edib ki, bu, üzv dövlətlərin istər Xarici İşlər Nazirliyi, istərsə də hökumət nümayəndələri, Parlament Şəbəkəsi səviyyəsində keçirilmiş tədbirləridir. Ən mühüm məsələlərdən biri isə Hərəkatın Şuşada Gənclər sammitinin keçirilməsi oldu.

Arzu Nağıyev qeyd eidb ki, Azərbaycan birmənalı olaraq Qoşulmama Hərəkatını ən yüksək səviyyəyə qaldıran dövlətlərdən birincisidir. "Qoşulmama Hərəkatında təmsil olunmaq vacib işdir. Bitərəf dövlətlərin məhz heç bir bloka daxil olmayaraq, hərbi istiqamətdə hər hansı təsir mexanizminə malik olması da mühüm məsələdir. BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, dövlətlərin ərazi bütövlüyünə, suverenliyinə hörmət etmək, bir dövlətin siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı təcavüz hərəkətinin, eyni zamanda təhdidin qarşısını almaq, bundan imtina etmək, qarşılıqlı maraq və əməkdaşlıq təşviq etmək, beynəlxalq öhdəliklərə hörmətlə yanaşmaq Qoşulmama Hərəkatına üzv ölkələrə xasdır", - deyə A.Nağıyev bildirib.

Prezident İlham Əliyevin təşkilata sədrlik etməsinin çox mühüm və müsbət tendensiya yaratdığını deyən deputat əlavə edib ki, Azərbaycanın sədrliyi çərçivəsində görülən işlər, səfirlərlə görüşlər, eyni zamanda pandemiya dövründə QH-nin təmas qrupunun Zirvə görüşünün keçirilməsi mühüm hadisələr kimi tarixə yazıldı. Bu Hərəkat Azərbaycanın təmsil olunduğu ən ciddi platformalardan biridir.

### Qoşulmama Hərəkatı həm də Azərbaycanın dünyaya yaxından tanıdılması baxımından vacib platformadır

Milli Məclisin deputatı Fazil Mustafa qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan Qoşulmama Hərəkatının fəaliyyətinin genişlənməsində böyük rol oynayıb və Hərəkatın nüfuzunun yüksəlməsi, onun təşəbbüskarlığının artması istiqamətində əhəmiyyətli işlər görüb.

Deputat bildirib ki, ölkəmizin sədrliyi dövründə QH-nin Parlament Şəbəkəsinin yaradılması da yeni hadisə idi: "Burada Azərbaycan Parlamentinin Sədri Sahibə Qafarova tərəfindən də çox aktual məsələlər gündəmə gətirildi. Azərbaycanın problemləri bir daha dünya ictimaiyyətinin, Hərəkat üzvlərinin diqqətinə çatdırıldı".

Fazil Mustafa vurğulayıb ki, Azərbaycan diplomatiyası bütün platformalarda öz üzərinə düşəni etməyə çalışır və etməlidir də. Çünki bundan sonrakı fəaliyyətimizdə dövlətin problemlərinin həlli üçün məsələlər mütləq beynəlxalq platformaya çıxarılmalıdır.

Qoşulmama Hərəkatının həm də Azərbaycanın dünyaya yaxından tanıdılması baxımından da vacib platforma olduğunu qeyd edən F.Mustafa bildirib ki, Bakıda keçirilən tədbirlərdə dünya ölkələrinin təmsilçiləri həm də Azərbaycanla tanış olurlar. "Ümid edirəm ki, bunun nəticələri müsbət olacaq. Qoşulmama Hərəkatı bundan sonrakı fəaliyyətində Azərbaycanın addımlarını da dəyərləndirəcək", - deyə deputat qeyd edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

**2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamdan irəli gələn vəzifələrin uğurla həyata keçirilməsi hər bir azərbaycanlıda qürur doğurur. Müstəqillik tariximizin yaradıcısı və dövlətimizin qurucusu, bütün mənalı həyatını xalqının və vətəninin gələcəyinə, xoşbəxtliyinə, inkişafına sərf edən görkəmli dövlət xadimi, uzaqgörən siyasətçi Heydər Əliyevin adı və xidmətləri unudulmazdır, əbədidir.**



# Heydər Əliyevin aqrar siyasət xətti davamlı inkişafdadır

Ümummilli Liderin fəaliyyəti illərə sığan deyil və sözsüz ki, bu ömrün bəşəri dəyərlərindən xalqımız, insanlar əsrlərlə bəhrələnəcəklər. Çünki Heydər Əliyevin mənalı ömrünün hər bir anı insanlığa hörmət, məhəbbət, qayğı, xalqlara və millətlərə azadlıq, bərabərlik, əmin-amanlıq, sülh, səadət, vətənə sədaqət nümunəsidir. Qətiyyətlə demək olar ki, Azərbaycanın son yarım əsrdən artıq dövrünü əhatə edən tarixi Heydər Əliyevin adı, fəaliyyəti və ölməz ideyalarının həyata keçirilməsi ilə bağlıdır. Bu dövrdə ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən yeniliklər, uğurlar, dəyişikliklər bu dahi insanın canlı fəaliyyətinin və ölməz ideyalarının bəhrəsidir.

Heydər Əliyev parlaq siyasi zəkası, bəşəri düşüncəsi, uzaqgörən fikirləri ilə canlı əfsanəyə, fenomenə çevrilmiş, dünya siyasətçiləri, dövlət rəhbərləri arasında seçilmiş, özünün əvəzolunmaz təşkilatçılığı, bacarığı və cəsarəti ilə dünya xalqlarının hörmətini qazanmışdır.

Müasirləri, onun fəaliyyəti və siyasi kursu ilə yaxından tanış olanlar Heydər Əliyevi tək Azərbaycan xalqının deyil, bütün xalqların və millətlərin dostu, cəfakeşi, əzizi kimi qiymətləndirmişlər.

Heydər Əliyev ən böyük azərbaycanlı idi və azərbaycanlı olması ilə daim fəxr edirdi. Millilik, tariximizə, dinimizə, mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiqlik, hörmət və ehtiram bu müdrik insanı səciyyələndirən, ona məhəbbət qazandıran başlıca amillərdəndir. Dünya azərbaycanlılarının həmrəyliyi, vahid amal, tarixi vətən ətrafında birliyi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyin inkişafı, xalqın rifahının yüksəldilməsi, ölkənin iqtisadi-siyasi və mədəni inkişafı Ümummilli Liderin həyat amalı idi. O, Azərbaycanı bütöv və dünya azərbaycanlılarını həmişə həmrəy görmək istəyirdi. Ulu Öndər bildirirdi ki, "Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada soydaşlarımızın bir olması vacibdir".

Heydər Əliyev Azərbaycanın inkişafını, xalqın tərəqqisini hər zaman insanların birliyində, həmrəyliyində görür və bunun uğrunda yorulmadan mübarizə aparırdı. Çünki hakimiyyətə gəldiyi, respublikaya rəhbərlik etdiyi 1969-cu ilin ilk günlərindən o, bu birliyin əzəmətini, uğurlara yol açdığını görmüş və məhz bu birlik, səfərbərlik nəticəsində respublikanın ucalacağına, xalqın inkişaf edəcəyinə əmin olmuşdu.

O çətin, uğursuz illərdə respublikanı düşdüyü ağır vəziyyətdən çıxararkən Heydər Əliyev məhz xalqın dəstəyinə arxalanmış və ən geridə qalan Azərbaycanı qısa bir müddətdə ittifaqın ən qabaqcıl regionu kimi yüksəltmiş, tanıtdırmış və şöhrətləndirmişdir.

Azərbaycan aqrar bir respublika idi. Odur ki, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi ilk gündən bu sahənin inkişafına göstərdiyi qayğı və diqqət, kadrların seçilib yerləşdirilməsində, yeni texnologiyaların təsərrüfatlara tətbiq edilməsində, kənd təsərrüfatının sənaye təməli üzərinə keçirilməsində həyata keçirdiyi köklü dəyişiklikər, əsaslı tədbirlər təsadüfi deyildi. Respublikada pambıqçılığın, üzümçülüyün, heyvandarlığın inkişafı sözsüz ki, yeni emal müəssisələrinin - zavodların, fabriklərin, sexlərin, dəmir yollarının yaradılmasını zərurətə çevirirdi. Heydər Əliyev respublikada həyata keçirilən bütün tədbirləri, layihələri ittifaqın qərarları, sənədləri ilə əsaslandırırdı. Diqqət yetirək: 1970-ci il iyulun 23 və 25-də Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in kənd təsərrüfatının inkişaf tədbirləri haqqında" və "Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafı haqqında", 1975-ci il iyulun 9-da "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" və 1979-cu il fevralın 22-də "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü, şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" dörd mühüm qərar qəbul etmişdir. Bu qərarların qəbulu və onun müddəalarının yerinə yetirilməsi respublikada kənd təsərrüfatının inkişaf etdirilməsində əsaslı rol oynamış və Azərbaycan aqrar sahədə əldə olunan nəticələrə görə bir neçə ildə ittifaqın ən qabaqcıl respublikalarından biri kimi tanınmışdır.

Əgər 1969-cu ildə respublikada 299,4 min ton, hər hektardan 15,1 sentner pambıq istehsal edilmişdirsə, 1981-ci ildə 1.015,3 min ton, hər hektara 35,9 sentner məhsul götürülmüşdür.

Bu dövrdə üzüm istehsalı 272,0 min tondan 1.815,6 min tona çatdırılmışdır. Məhsuldarlıq iki dəfədən çox yüksəlmişdir. Taxıl istehsalı 573,9 min tondan 1.211,3 min tona çatdırılmışdır. Həmin dövrdə heyvandarlıq məhsulları istehsalı da bir neçə dəfə artmışdır. Kənd təsərrüfatının bütün sahələrində uğurlu nəticələr əldə edilmişdir.

1969-1982-ci illərdə kənd təsərrüfatının ümumi məhsulu 2,7 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Həmin illərdə meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsait əvvəlki 50 il ərzində qoyulan vəsaitdən 2,5 dəfə artıq olmuşdur ki, bu da kənd təsərrüfatının sürətli inkişafına imkan yaratmışdır. 1970-1982-ci illərdə xalq istehlakı mallarının artırılmasına 1 milyard 200 milyon manat sərf edilmişdir ki, bu da əvvəlki dövrlə müqayisədə 3,6 dəfə çoxdur.

Həmin illərdə kənd təsərrüfatı ilə paralel olaraq sənaye də özünün yüksəliş dövrünü yaşamışdır. O dövrdə sənaye istehsalının həcmi 2,7 dəfə artmışdır. 1969-cu ilədək Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi illərdə isə bu obyektlərin sayı 1048-ə çatdırılmışdır. Ölkədə 581 adda yeni tipli maşın avadanlıqları, aparat və cihaz nümunələri yaradılmışdır ki, bu nümunələr də sənayedə elmi-texniki nailiyyətlərin geniş tətbiq olunmasına kömək etmişdir.

1969-1982-ci illərdə respublikada 18,5 milyon kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdir ki, nəticədə də 2 milyon 2 yüz mindən çox insan yeni mənzillərlə təmin edilmişdir. Həmin illərdə 633 min yeni iş yeri yaradılmışdır.

Əzəmətli tikinti-quruculuq işləri, yüksək sosial-iqtisadi göstəricilər, sağlam mənəvi mühit, gələcəyə inam o dövrü səciyyələndirən cəhətlərdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin dövrdə - 13 il ərzində respublikamız çiçəklənən bir diyara çevrilmişdir. Bir faktı qeyd etməklə inkişafın miqyasını qiymətləndirmək olar. Belə ki, həmin illərdə ozamankı qiymətlərlə 101,5 milyard manatlıq məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki 50 ildə istehsal olunan məhsula bərabərdir. Azərbaycan rəhbərinin böyük təşkilatçılıq qabiliyyəti zamanı on illərlə qabaqlamış, respublikanın həyatını sürətlə irəliyə, inkişafa aparmışdı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin illərin inkişafını belə dəyərləndirmişdir. "Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci ilin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikalardan birinə çevrilmişdir. Məhz o illərdə çox mühüm sənaye potensialı yaradılmışdır, infrastruktur layihələri icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir".

Ölkə rəhbərinin qeyd etdikləri unudulmaz həqiqətdir və biz bunu bugünkü həyatımızda daimi hiss edirik. O dövrdə respublikanın kənd təsərrüfatı inkişaf etdirildi, eləcə də paralel olaraq yüzlərlə zavod, fabrik, sənaye müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib istifadəyə verildi. Naxçıvanski hərbi liseyinin, Dərin Özüllər Zavodunun timsalında biz bunu aydın görürük.

Nümunə gətirdiyimiz rəqəmlər inkişafımızın göstəricisi olmaqla, ilk növbədə, Heydər Əliyev təşkilatçılığının bəhrəsi kimi qiymətləndirilməlidir. Ulu Öndər kadrlara qarşı tələbkar olduğu qədər də mehriban, qayğıkeş idi. İnsanları bacarığına, ağlına, sədaqətinə, mövqeyinə görə qiymətləndirir, onlara etimad göstərir və səmərəli fəaliyyətə istiqamətləndirirdi.

Heydər Əliyevin Moskvada keçən ömrü, həyat yolu da mənalı və unudulmazdır. Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini kimi o, ittifaqda öz sözünü deyən, təşkilatçılığı ilə digər rəhbər işçilərdən fərqlənən, insanlar tərəfindən sevilən və hörmətlə qarşılanan bir rəhbər idi. Sovet İttifaqının sosial-iqtisadi inkişafı sahəsində onun xidmətləri əvəzsizdir. Digər tərəfdən, 1982-1987-ci illərdə Azərbaycana göstərilən qayğı və diqqət, respublikanın inkişafı üçün həyata keçirilən mühüm tədbirlər bilavasitə Ulu Öndərimizin adı ilə bağlıdır. Keçmiş Sovet İttifaqının bütün xalqları Heydər Əliyevi prinsipial bir rəhbər, müdrik siyasətçi, həssas və mehriban insan kimi tanıyır, ona böyük hörmət bəsləyirdilər.

Bu müdrikliyin, hörmət və etimadın nəticəsi idi ki, xalqımız ən çətin günlərdə, Azərbaycanın parçalanmaq, məhv olmaq ərəfəsində olduğu 1993-cü ildə yenidən Heydər Əliyevə müraciət etdi, onu ikinci dəfə hakimiyyətə gətirdi. Ümummilli Liderimiz həmin illərdə Azərbaycanı yalnız parçalanmadan, dövlət çevrilişindən, aclıqdan, qarşıdurmadan xilas etmədi, həm də öz xilaskarlıq missiyasını yerinə yetirərək xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən həyatı, dövləti - müstəqil Azərbaycanı bəxş etdi.

"Əsrin müqaviləsi"nin imzalanması, əhəmiyyətli layihələrin həyata keçirilməsi, dünya birliyi ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi, atəşkəsə əməl olunması, iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə, mənəviyyatda əsaslı dəyişikliklərin baş verməsi Heydər Əliyevin böyük xidmətlərinin nəticəsi idi.

Heydər Əliyev bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatının idarə edilməsində də zəngin biliyə və təşkilatçılığa malik idi. O, yaxşı bilirdi ki, torpağı əsl sahibinə - kəndliyə qaytarmadan böyük nailiyyətlər əldə etmək mümkün deyildir. Məhz dahi rəhbərin uzaqgörənliyi sayəsində Azərbaycanda torpaq islahatı şəffaf, ədalətli şəkildə həyata keçirildi.

Ölkədə aqrar islahatların aparılması üçün normativ hüquqi sənədlər və qanunlar hazırlanıb qəbul edildi. 1995-ci ilin əvvəllərindən aqrar islahatlara başlanıldı. 1995-1996-cı illərdə "Aqrar islahatların əsasları", "Sovxoz və kolxozların islahatı", "Torpaq islahatı" haqqında qanunların, digər vacib hüquqi aktların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparılması üçün əsaslı imkanlar yaratdı.

Aqrar bölmədəki islahatlar qətiyyətliliyi və sürəti ilə nəinki Azərbaycan iqtisadiyyatının digər sahələrində, hətta postsovet respublikalarında aparılan islahatlardan əsaslı surətdə fərqlənərək ölkədə özəl mülkiyyətin formalaşmasında və sahibkarlığın inkişafında xüsusi rol oynadı. 1999-2000-ci illərdə ölkə Prezidenti islahatların daha da dərinləşdirilməsi məqsədilə 8 fərman imzaladı və bunun sayəsində bir çox tədbirlər görüldü. İslahatlar nəticəsində 1970 kolxoz və sovxozun hamısında torpaq və əmlak 3 milyon 500 minə yaxın vətəndaş arasında bölündü.

Heydər Əliyevin 22 mart 1999-cu il tarixli "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" fərmanı xüsusilə mühüm əhəmiyyətə malikdir. Fərmana əsasən, Nazirlər Kabineti kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına güzəştli pərakəndə satış qiyməti ilə neft məhsullarının (benzin, dizel yanacağı və motor yağları) satılması barədə qərar qəbul etdi. Milli Məclis isə həmin fərmana uyğun təqdim edilmiş layihəni müzakirəyə çıxararaq kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi barədə qanun qəbul etdi. Bu güzəştlər digər MDB ölkələrində bu gün də tətbiq edilmir.

Müdrik rəhbərin ötən əsrin sonlarında həyata keçirdiyi aqrar islahatı kolxoz və sovxozların ləğv edilərkən torpaqların əsl sahiblərinə qaytarılması inqilabi gediş idi və Ulu Öndər bununla ölkədə sahibkarlığın inkişafına, kənd təsərrüfatı məhsullarının istehsalının artımına imkan yaratdı. Torpağın kəndliyə - sahibinə verilməsi bu günlərimizin uğurları üçün hesablanmışdı və hazırda kənd təsərrüfatı sahələrində əldə olunan nəticələr islahatın əhəmiyyətini bir daha sübut edir.

Heydər Əliyev kənd təsərrüfatı əməkçilərinin ən yaxın məsləhətçisi və dostu idi. Bu sahədə çalışanlara qayğı və diqqətini əsirgəmirdi. Hakimiyyətdə olduğu illərdə minlərlə kənd təsərrüfatı işçisi yüksək təltiflərlə mükafatlandırılmış, fəxri adlara layiq görülmüşdür. Həmin illərdə Azərbaycan kəndinin mədəni siması tamamilə dəyişmiş, insanların rifah halı yüksəlmişdir. Ulu Öndər pambıq sahələrini, taxıl zəmilərini, üzüm plantasiyalarını, heyvandarlıq komplekslərini gəzməkdən, işlərin gedişi ilə tanış olmaqdan, insanlarla görüşlərdən, onları dinləməkdən xüsusi zövq alırdı. O, zəhmət adamlarının əməyini yüksək qiymətləndirirdi, onları sevirdi, problemləri ilə tanış olurdu və həlli üçün tapşırıqlar verirdi.

Heydər Əliyev Ağcabədiyə altı dəfə səfər etmişdi və həmin səfərlərin hər biri əsl bayrama çevrilirdi. Rəhbərin gəlişi təsərrüfatların inkişafına, problemlərin aradan qaldırılmasına, yeni sahələrin yaradılmasına, nəzarətin gücləndirilməsinə imkan yaradır, inşaları əməyə ruhlandırırdı. Ağcabədiyə dəmir yolunun çəkilməsi, pambıq və çörək zavodlarının, məktəb, mədəniyyət, tibb müəssisələrinin tikilməsi, yolların çəkilməsi, su təminatının yaxşılaşdırılması bu səfərlərin nəticəsi kimi dəyərləndirilirdi. Bu səfərlər, göstərilən qayğı və diqqət insanlara ruh yüksəkliyi, daha yaxşı işləmək üçün bir stimul verirdi.

Ulu Öndər bəzən saatlarla insanlar arasında olur, kənd əməkçilərini dinləyir, onların həyatı, yaşayışı ilə maraqlanırdı. Əlbəttə, bu görüşlərin hər biri insanlar üçün unudulmaz bir hadisəyə, əziz xatirəyə çevrilirdi. Bu xatirələr Heydər Əliyevin böyüklüyünü, vətənpərvərliyini, insani keyfiyyətlərini göstərir və xatırlandıqca bu böyük insana olan məhəbbəti əbədiləşdirir.

Mən bu xatirələri toplamaq, kitab halında çap etdirmək qərarına gəldim. Kitab yüksək maraqla qarşılandı. Heydər Əliyevlə bağlı əmək adamlarının, təsərrüfat rəhbərlərinin söylədiyi hər bir xatirə canlı tabloya bənzəyir və oradan Ulu Öndərin müdrik siması boylanırdı.

Heydər Əliyevin kənd əməkçisinə qayğısını və fenomen yaddaşa malik olmasını xarakterizə edən bir görüşün epizodunu nümunə üçün diqqətə çəkirəm. 1982-ci ildə kolxoz sədri işləmiş Aqil Muradov Heydər Əliyevlə görüşlərindən birini belə xatırlayır: "1982-ci ilin iyul ayının 12-də Heydər Əliyev rayona gələndə mən Lenin adına kolxozda sədr işləyirdim. Həmin gün görüş yerinə Çkalov adına və "Tacikistan" kolxozundan da adamlar gəlmişdi. Görüşdə 5 mindən çox adam iştirak edirdi. Səhər saat 11-də Heydər Əliyev görüşə gəldi. Onu birinci mən qarşıladım və 10 dəqiqə kolxozun fəaliyyəti haqqında məlumat verdim. Sonra o biri kolxoz sədrləri məlumat verdilər. Bizim kolxozun pambıq sahəsində görüş keçirib razı qaldı. Mənə dedi ki, gəl bu işgüzar qadınlarla şəkil çəkdirək. Şəkil çəkdirdik. Həmin anda bir nəfər qadın şəxsi həyatı ilə əlaqədar ərizə təqdim etdi.

Heydər Əliyev məndən həmin qadının nə problemi olduğunu soruşdu. Mən cavab verdim ki, onun həyat yoldaşı Rusiyada yaşayır və bir neçə ildir ki, qayıdıb gəlmir.

O gülümsəyərək dedi:

- Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır.

1999-cu ilin iyun ayının 14-də Bakıda Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 30-cu ildönümü ilə əlaqədar tədbirə dəvət olunmuşdum. Fasilə zamanı hörmətli prezidentimiz foyedə bir qrup tədbir iştirakçısı ilə görüşüb söhbət etdi. Mən də iştirakçılar arasında idim. Heydər Əliyev məni dərhal tanıdı:

- Siz Ağcabədidənsiniz?

Cavab verdim ki, bəli.

- O vaxt mənə müraciət edən qadının məsələsi həll olundumu?

Mən cavab verdim ki, bəli, cənab Prezident, həll olundu.

Onun möcüzanə yaddaşına heyran qaldım. 17 il əvvəl olmuş bir hadisə yaddaşında necə də dəqiq qalmışdı". Mən özüm də hər dəfə "Heydər Əliyev və Ağcabədi" kitabındakı xatirələri oxuyarkən dönə-dönə bu böyük insanın müdrikliyinə, insanpərvərliyinə, zəkasına, vətən, xalq sevgisinə heyran qalır, Ulu Öndərin ruhu qarşısında bir daha baş əyirəm.

Sevinirik ki, Heydər Əliyevin arzuları, əməlləri çiçəklənir, onun ideyaları hörmətli Prezident İlham Əliyev tərəfindən sədaqətlə, cəsarətlə, qətiyyətlə həyata keçirilir. Ulu Öndərin canı qədər sevdiyi, qiymətləndirdiyi, ağrı-acısını yaşadığı Qarabağ torpaqları azaddır, düşməndən təmizlənmiş, qatillər, cəlladlar öz cəzalarına çatdırılmışlar.

Bütün sahələrdə olduğu kimi, ölkənin aqrar sektoru da sürətli inkişaf yolundadır. Prezident seçildiyi ilk gündən cənab İlham Əliyev ölkədə kənd təsərrüfatının yenidən qurulması, müasirləşdirilməsi, sahibkarlığın inkişafı və kənd adamlarına qayğının artırılması barədə öz mövqeyini aydın şərh etmiş, Ulu Öndər tərəfindən aparılan islahatların əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılmışdır. Torpaq özəl mülkiyyətə verilibdir. Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlanmalıdır".

Prezidentimizin aqrar sektorda islahatların aparılmasına önəm verməsi, bu sahədə mühüm fərmanların, sərəncamların, əsasnamələrin qəbul edilməsi, əməli tədbirlərin görülməsi sahənin inkişafında mühüm əhəmiyyətə malikdir. Xüsusilə son illərdə "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" (19 dekabr 2018-ci il), "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" (14 yanvar 2019-cu il), "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" (27 iyul 2019-cu il), "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" (15 iyul 2021-ci il), "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" (7 oktyabr 2021-ci il) və digər imzalanmış fərmanlar, eyni zamanda "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi", "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyalarının inkişafına dair Dövlət Proqramı", aqrar sahədə elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi bilavasitə aqrar sektorun inkişafına hesablanmış və öz töhfələrini verməkdədir.

Ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının artırılması, aqrar sektorda istehsal vasitələri bazarının inkişafı, maliyyəyə çıxışın asanlaşdırılması, yeni texnologiyaların tətbiqi və istifadə mexanizmlərinin formalaşdırılması, biznes mühitinin təkmilləşdirilməsi, sahibkarlığa qayğının artırılması, kənd yerlərində əhalinin rifahının yüksəldilməsi, qarşıya qoyulan mühüm hədəflərə çatmaq qəbul olunmuş sənədlərin ana xəttini təşkil etmişdir. Son 15 il ərzində ölkə üzrə üzüm və meyvə istehsalı 2 dəfə, pambıq istehsalı dəfələrlə artmışdır. Əhali mal əti ilə 90 faiz, toyuq əti ilə 80 faiz, qoyun əti ilə 100 faiz təmin edilir, kənd təsərrüfatı istehsalı son illər 3,4 faiz artmışdır. Aqrar sektor 2 dəfədən çox inkişaf etmişdir. Son beş ildə kənd təsərrüfatına xərclər 1,8 dəfə artırılmışdır. Bu il dövlət büdcəsində aqrar sektora xərclərin 20,5 faiz artırılması nəzərdə tutulmuşdur. Xarici ölkələrə ixrac edilən kənd təsərrüfatı məhsullarının həcmi ildən-ilə artır.

Bu gün ölkədə kənd təsərrüfatının əkin suyuna olan tələbatının ödənilməsi, toxumçuluq təsərrüfatlarının inkişaf etdirilməsi, heyvanların cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi üçün müasir texnologiyaların tətbiq olunması, kadrların hazırlanması, ərzaqlıq buğda istehsalının artırılması, güzəştli kreditlərin verilməsi, işğaldan azad olunmuş ərazilərin əkin dövriyyəsinə daxil edilməsi istiqamətində mühüm işlər görülür.

Azərbaycan iqtisadiyyatının inkişafında aqrar sektorun mühüm rol oynadığını nəzərə alaraq bu sahəyə qayğı və diqqət ildən-ilə artırılır, yeni layihələr, proqramlar, yol xəritələri hazırlanır. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən aqrar sektorun hüquqi bazasını möhkəmləndirmək məqsədilə 1995-ci ildən bu günə kimi mühüm qanunlar qəbul etmiş, sazişləri təsdiqləmiş, qanunlara əlavə və dəyişikliklər edilmişdir. Bu qanunvericilik aktlarının sayı 300-dən çoxdur və onlar kənd təsərrüfatının hüquqi əsaslarla idarə edilməsində başlıca əhəmiyyətə malikdirlər.

*Ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən imzalanan yeni fərmanlar, sərəncamlar bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin aqrar siyasət xətti uğurla davam etdirilir, inkişafdadır və gələcək nailiyyətlərimizə öz töhfələrini daimi olaraq verəcəkdir.*

**Tahir RZAYEV,**
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

**Azərbaycanın BMT-yə üzv qəbul edilməsindən 31 il ötür**

# BMT-də islahatların aparılması zamanın tələbidir



Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunmasından 31 il ötür. 1992-ci il martın 2-də BMT-nin bütün üzvlərinin yekdilliklə səsverməsi nəticəsində ölkəmiz təşkilata üzv olub. Həmin dövrdə BMT-yə üzv qəbul olunmaq müstəqillik qazanmış ölkəmizin tarixində mühüm hadisələrdən birinə çevrildi.





BMT çərçivəsində çoxtərəfli əməkdaşlıq Azərbaycana beynəlxalq aləmdə mövqelərini möhkəmləndirməyə, daha sıx əlaqələr yaratmağa imkan verdi.

Hazırda Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə səmərəli əməkdaşlığını davam etdirir. Lakin Prezident İlham Əliyevin sözləri ilə desək, Təhlükəsizlik Şurasının dörd məşhur qətnaməsinin icra edilməməsi bu təşkilatın nüfuzuna, əlbəttə ki, əgər belə demək mümkündürsə, əlavə dəyər qatmadı: "Amma indiki şəraitdə artıq təkcə biz yox, bir çox ölkələr də israrla deyirlər ki, bu qurumda ciddi islahatlar aparılmasına ehtiyac var, xüsusilə Təhlükəsizlik Şurasının tərkibinə yenidən baxılmalıdır".

## Ölkəmizin BMT üzvlüyünə qəbul edilməsi tarixi hadisə idi

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Sovet İttifaqının dağılması ilə bütün sosialist məkanında, eləcə də ölkəmizdə baş qaldıran milli azadlıq hərəkatları çoxlu müstəqil dövlətlərin meydana çıxmasına səbəb oldu: "Təəssüf ki, bir sıra ölkələrdən fərqli olaraq, Azərbaycanın azadlığa gedən yolu torpaqlarımızın işğalı, separatizm və dövlət quruculuğuna zərbə vuran daxili və xarici iqtisadi-siyasi böhranlar, o cümlədən dövlət çevrilişləri ilə əhatələndi. Belə bir vaxtda, Azərbaycanın 1992-ci ildə BMT-nin üzvlüyünə qəbul edilməsi tarixi hadisə idi. Bu, uzun illər, əsrlər, hətta minilliklər boyu müstəqilliyə can atan millətin varlığının, siyasi iradəsinin təcəssümü və həm də hüquqi müstəvidə buna ən yüksək qiymətin verilməsi idi. Bu elə bir hüquqi platforma idi ki, istənilən siyasi müstəvidə mövqelərimizi gücləndirirdi".

Komitə sədrinin sözlərinə görə, nəzərə almaq lazımdır ki, biz ondan sonrakı dövrdə də itirilmiş torpaqlarımız uğrunda savaşı məhz BMT tərəfindən tanınmış sərhədlərimizə dönüş kimi aparırdıq: "Təşkilatın keçmiş Qarabağ münaqişəsi ilə bağlı qətnamələri sonrakı illər ərzində icra edilməsə də, xalqımızın milli-mənəvi, siyasi-iqtisadi və hüquqi mövqeyi məhz həmin aktlarda birləşib, vahidləşmişdi. Yəni Azərbaycanın BMT səviyyəsində tanınması bizə gələcək dövrdə hər kəsi bu siyasi faktla, hüquqi addımla hesablaşdırmağa imkan verdi".

Zahid Oruc, həmçinin qeyd edib ki, birləşmiş millətlər de-fakto mövcud olmasa da, Azərbaycan dövlətinin və xalqının Vətən müharibəsindəki qələbəsi, obrazlı desək, millətləri birləşdirdi: "Əgər indi torpaqları düşmən tapdağı altında olan dövlətlər və xalqlar öz ərazilərinin azadlıqları uğrunda mübarizə aparırlarsa, onlar Azərbaycanı bir simvol kimi görə bilərlər".

## Azərbaycan Prezidentinin BMT ilə bağlı mövqeyi təşkilatın xilası üçün ədalətli və praqmatik həll yoludur

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib ki, BMT-Azərbaycan əlaqələri çoxşaxəli və sistematik xarakter daşıyır və əhəmiyyətli inkişaf yolu keçib: "Lakin BMT Nizamnaməsində 78 il öncə müəyyənləşdirilmiş vəzifələr müasir qlobal çağırışlarla artıq ayaqlaşmadığı üçün təşkilat vəzifələrini lazımi formada yerinə yetirə bilmir". Hazırda siyasi, iqtisadi, hüquqi dəyərlər, qlobal maraqlar tam fərqli məcraya qədəm qoyub, nüfuz sosialist-kapitalist qütblərinin toqquşmasında ifadə olunmur. 1945-ci ilin standartları ilə yeni dünyaya yanaşmaq, təbii ki, effektiv ola bilməz. Digər tərəfdən, hətta effektiv olsa belə, BMT-nin fəaliyyətində bir çox dövlətlərə, xüsusən islam dünyasına münasibətdə ikili standartlar müşahidə olunur. Məsələləri faktiki olaraq Təhlükəsizlik Şurasının yalnız 5 daimi üzvü həll edir. Elə Azərbaycanın nümunəsində 30 il yerinə yetirilməyən BMT Təhlükəsizlik Şurasının qətnamələri də bunun ən bariz nümunəsidir. Prezident İlham Əliyevin dəfələrlə ifadə etdiyi kimi, "Azərbaycan 30 ilə yaxın işğala hərbi-siyasi vasitələrlə son qoyub, öz ərazi bütövlüyünü bərpa edib və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü həyata keçirməli olub". Dövlət başçısının sözlərinə görə, BMT özü bu qətnamələrin tələblərinə əməl etməli idi: "Məhz bu, BMT Təhlükəsizlik Şurasında islahatlara ehtiyacı diktə edir".

B.Məhərrəmov deyib ki, rəsmi Bakı BMT qətnamələrinin icrası üçün kimsəyə möhtac deyil: "Azərbaycan öz məsələsinə təkbaşına həll yolu tapıb, BMT qətnamələrini icra edib. Lakin bəzilərinə münasibətdə hətta saatlar içində hərəkətə keçən BMT mexanizmlərinin bəzən icrasız qalması təhlükəli tendensiyadır. Cənab İlham Əliyevin "BMT-də islahatlar aparılması, Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi" barədə mövqeyi daha çox təsisatın nüfuzunun bərpası və ümumilikdə təşkilatın özünün xilası üçün kifayət qədər sadə, ədalətli və müasir qlobal çağırışlara uyğun və praqmatik həll yoludur".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisinin rəhbərinə Laçın yolu ətrafındakı vəziyyət barədə məlumat verilib

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Cenevrədə BMT İnsan Hüquqları Şurasının 52-ci sessiyasında iştirakı çərçivəsində BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisinin rəhbəri Rameş Rajasinqham ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı, Azərbaycan ilə BMT-nin Humanitar Məsələlərin Koordinasiya Ofisi arasında mövcud əməkdaşlığın perspektivləri, o cümlədən bölgədə postmünaqişə dövründə vəziyyət, habelə Laçın yolu ətrafında məsələlər müzakirə mövzusu olub.

Humanitar yardımlar sahəsində Azərbaycanın aktiv fəaliyyətinə məmnunluqla istinad edən nazir müavini Elnur Məmmədov, bu xüsusda COVID-19 pandemiyası zamanı, o cümlədən postpandemiya dövründə Azərbaycanın bir çox inkişaf etməkdə olan dövlətlərə humanitar yardımlar göndərdiyini bildirib. Həmçinin Azərbaycan tərəfindən göstərilən beynəlxalq humanitar yardımların təmin olunmasında Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Beynəlxalq İnkişafa Yardım Agentliyinin fəaliyyəti də qeyd olunub.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, o cümlədən Azərbaycanın regionda sülh və quruculuq səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir müavini Elnur Məmmədov Laçın yolu ətrafında Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin etiraz aksiyası ilə bağlı Ermənistan tərəfindən beynəlxalq ictimaiyyəti yanlış məcraya yönləndirən "blokada", "humanitar böhran" iddialarının həqiqəti əks etdirmədiyini diqqətə çatdırıb. Nazir müavini Elnur Məmmədov Laçın yolundan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkət rejiminin dəyişməz olaraq qaldığını bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Azərbaycanın sülh və quruculuq səyləri barədə məlumatlandırılıb

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov BMT İnsan Hüquqları Şurasının 52-ci sessiyasında iştirakı çərçivəsində BMT-nin İnsan Hüquqları üzrə Ali komissarı Volker Türk ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı insan hüquqları sahəsində Azərbaycan və BMT arasında mövcud əməkdaşlıq gündəliyi, cari regional vəziyyət, habelə Laçın yolu ətrafında məsələlər müzakirə olunub.

Nazir müavini Elnur Məmmədov Azərbaycan və BMT arasında müxtəlif sahələrdə, o cümlədən insan hüquqlarının qorunması sahəsində əməkdaşlığın mövcudluğunu məmnunluqla qeyd edib. Bu xüsusda, əməkdaşlığın daha da genişləndirilməsi üçün perspektivlərin olduğu bildirilib. Nazir müavini Elnur Məmmədov, həmçinin Azərbaycanın sülh və quruculuq səylərinin Ermənistan tərəfinin davamlı siyasi-hərbi təxribatları ilə üzləşdiyini qeyd edib. Bu xüsusda, Laçın yolu ətrafında Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin haqlı etirazına kölgə salmaq məqsədilə Ermənistan tərəfindən guya Azərbaycanın erməni sakinlərini "blokadaya" alması, bölgədə "humanitar böhran" vəziyyətinin yarandığına dair həqiqəti əks etdirməyən mövqeyin sərgilənməsinin beynəlxalq ictimaiyyəti yanlış yönləndirməyə hesablandığı bildirilib. Azərbaycan Respublikasının bütün vətəndaşları kimi, bölgədə yaşayan erməni sakinlərinin də təhlükəsizliyini təmin etməyə hazır olduğu vurğulanıb.

Görüş zamanı eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının Prezidentinə məktub göndərib

Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə məktub göndərərək Ermənistandan qovulmuş azərbaycanlıların sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə öz vətənlərinə qayıtmalarına Avropa İttifaqının dəstək verməsini və Aİ-nin Ermənistandakı missiyasının ölkədən qovulmuş azərbaycanlıların hüquqlarının təmin edilməsi sahəsində müvafiq etimad quruculuğu tədbirləri həyata keçirməsini xahiş edib.

AZƏRTAC xəbər verir ki, məktubda Avropa İttifaqının Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını təşviq edən səyləri alqışlanmaqla bərabər, davamlı sülhün bərqərar edilməsi üçün Ermənistandan qovulmuş azərbaycanlıların qayıtmalarının zəruri şərt olduğu vurğulanır.

Həmçinin missiyanın mandatının etnik əsasda ayrı-seçkilik olmadan Ermənistanda insan hüquqlarına hörmətin təmin edilməsinə və etimad quruculuğuna dair vəzifələr ehtiva etdiyinə diqqəti çəkən icma missiyanı Ermənistandan qovulmuş azərbaycanlıların hüquq və təhlükəsizliyi ilə məşğul olmağa, o cümlədən onların öz evlərini, qəbiristanlıqlarını, müqəddəs yerlərini və mədəni abidələrini ziyarət edə bilmələrinə şərait yaratmağa çağırıb.

İcma, həmçinin Avropa İttifaqının Ermənistandakı missiyası ilə insan hüquqları, humanitar məsələlər, mülki şəxslərin qorunması kimi mövzular üzrə əməkdaşlığa hazır olduğunu bildirib.

# Azərbaycan Ermənistanı beynəlxalq platformalarda ifşa edir

## Ölkəmizə qarşı törədilən hərbi cinayətlərin hesabı qlobal hüquq müstəvisində veriləcək

"...Mən demişəm, bir daha demək istəyirəm, beynəlxalq qurumlar, ekspertlər gələcək, bütün ziyan hesablanacaq, 30 il ərzində bizə vurulmuş zərər nəzərə alınacaq və onlara qarşı təzminat iddiası qaldırılacaq".

Prezident İlham Əliyev Vətən müharibəsinin üzərindən qısa bir vaxt keçdikdən sonra, 2020-ci il noyabrın 16-da işğaldan azad edilmiş Cəbrayıl şəhərinə səfər edərkən bu bəyanatı səsləndirmiş, Ermənistanın onilliklər ərzində torpaqlarımızda törətdiyi bütün vəhşiliklərə görə beynəlxalq məhkəmələrdə cavab verəcəyinin mesajını çatdırmışdı.

### Ədalətin təmini

44 günlük müharibədə hərb meydanında Ermənistanı məğlubiyyətə uğradan Azərbaycan dövlətinin növbəti prioriteti ölkəmizə qarşı törətdiyi cinayətlərə görə təcavüzkarın beynəlxalq hüquq müstəvisində də cəzalandırılmasına nail olmaqdır.

Buna görə də, ölkəmiz 30 illik işğal, eləcə də Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Ermənistan tərəfindən törədilmiş cinayətlərə beynəlxalq hüquqi qiymətin verilməsi üçün vacib işlər həyata keçirir. Bu istiqamətdə atılan mühüm addımlardan biri isə Ermənistanın soydaşlarımızın insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edilməsidir.

İşğal dövründə Ermənistan torpaqlarımızı mina tarlasına çevirib və ilkin hesablamalara görə, ərazilərimizdə bir milyondan çox mina basdırıb. Eyni zamanda Ermənistan torpaqlarımıza basdırdığı minaların dəqiq xəritələrini verməkdən boyun qaçırmaqla yanaşı, 44 günlük müharibədən sonra da terrorçu əməllərindən vaz keçməyərək Laçın yolundan istifadə edərək ərazilərimizdə mina basdırmaqda israrlı olub.

Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsinə müraciətində, həmçinin azərbaycanlı mülki vətəndaşların qayıdacaqları bu ərazilərdə mina və mina tələləri basdırmaq, onlara sponsorluq etmək və ya onların yerləşdirilməsini dəstəkləmək üçün hər hansı növbəti səyləri dərhal dayandırması və bundan imtina etməsi ilə bağlı Ermənistana göstərişin verilməsi öz əksini tapıb və bununla bağlı yanvarın 31-də məhkəmədə dinləmələr keçirilib.

### Ermənistanın əsassız iddiaları rədd edilir

Bundan əvvəl, 2021-ci il dekabrın 7-də adıçəkilən məhkəmə Ermənistanın davam edən İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın pozuntularına qarşı qorunmaq üçün müvəqqəti tədbirlər haqqında Azərbaycanın ilk sorğusunu təmin edərək azərbaycanlılara qarşı yönəlmiş irqi nifrətin qızışdırılmasının və təşviqinin qarşısını almaq üçün bütün lazımi tədbirləri görməyi Ermənistana tapşırmışdı.

Bu il fevralın 22-də BƏM-in "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işləri üzrə müvəqqəti tədbirlərə dair qərarı da Ermənistanın soydaşlarımızın hüquqlarını qəsdən pozmasının beynəlxalq hüquq çərçivəsində də daha bir təsdiqi oldu. Məhkəmənin son qərarına əsasən, Laçın yolu ilə bağlı Ermənistanın vəsatəti və aksiyanın Azərbaycan hökuməti tərəfindən təşkil olunması ilə bağlı fərziyyə ləğv edilib. O cümlədən məhkəmə prosesində Ermənistanda 2021-ci ildə istehsal edilmiş minaların işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanması haqqında bizim tərəfdən ortaya qoyulan faktların heç birini bu ölkə təkzib edə bilməyib.

### Enerji resurslarımızın qeyri-qanuni istismarına görə təzminat ödənilməlidir

Azərbaycanın enerji ehtiyatlarının qeyri-qanuni istismarı ilə əlaqədar ölkəmiz tərəfindən Enerji Xartiyası Müqaviləsinə əsasən, fevralın 27-də Ermənistana qarşı arbitraj prosesinə başlanılıb. Azərbaycan tərəfi Ermənistana təqdim edilmiş Arbitraj Bildirişində 1991-ci ildən 2020-ci ilə qədər bu ölkənin ərazilərimizin 30 ilə yaxın qanunsuz işğalı dövründə Azərbaycanın enerji resursları üzərində suveren hüquqlarını pozduğuna görə Ermənistandan təzminat və maliyyə kompensasiyası tələb edib.

Ermənistan, hərbi güc yolu ilə Qarabağ bölgəsindəki enerji resurslarından istifadədən Azərbaycanı məhrum qoymaqla, ölkəmizin enerji ehtiyatlarını öz xeyrinə istismar etməklə, habelə Azərbaycanın öz milli enerji siyasətinə və ətraf mühitlə bağlı öhdəliklərinə uyğun olaraq enerji ehtiyatlarını daha da inkişaf etdirmək imkanından məhrum etməklə Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn fundamental prinsiplərini pozub.

Bu arbitraj işinin məqsədi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərində Ermənistan tərəfindən enerji ehtiyatlarının 30 ilə yaxın dövr ərzində qeyri-qanuni istismarı və qəsb edilməsinə cavab olaraq haqq-ədaləti və Ermənistanın təzminat ödəməsini təmin etməkdir.

### Haqq-ədalət bizim tərəfimizdədir

Ermənistanın 30 il müddətində Azərbaycana qarşı törətdiyi cinayətlər bunlarla yekunlaşmır. Tarixi ərazilərimizi üç onillik boyu işğal altında saxlayan vandal ermənilər bu ərazilərdə bütün yaşayış yerlərini talayıb dağıdıb, xalqımıza məxsus tarixi, dini, mədəni irsi məhv edib, ekoloji terrora əl ataraq bulaqlarımızı, çaylarımızı qurudub, meşələrimizi qırıb, yandırıb, flora və faunamıza qənim kəsiliblər.

Birinci Qarabağ müharibəsindən etibarən erməni silahlı qüvvələri tərəfindən azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı qırğınlar törədilib, 1992-ci ildə Xocalıda soyqırımı həyata keçirilib. Bu günədək Ermənistan Birinci Qarabağ müharibəsi nəticəsində itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verməyib. Dünyanın gözü qarşısında əl atdığı bu hərbi cinayətlərə görə Ermənistan beynəlxalq səviyyədə hüquqi məsuliyyətə cəlb olunmayıb.

Lakin gətirdiyimiz nümunələrdən də bəlli olduğu kimi, Azərbaycan dövləti Ermənistanın ölkəmizə qarşı törətdiyi cinayət əməllərinin hesabını bir-bir soruşur, onu beynəlxalq hüquq müstəvisində cavab verməyə məcbur edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İƏT-ə üzv dövlətlərin diplomatik toxunulmazlığı müzakirə edilib

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında (İƏT) sədrliyi çərçivəsində Daimi Nümayəndələr Şurasının (DNŞ) 273-cü iclası keçirilib.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbir Azərbaycanın İrandakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadənin sədrliyi, İƏT-in Baş katibi Xusrov Nozirinin və İƏT üzv dövlətlərinin Tehrandakı diplomatik nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə hibrid formatda baş tutub.

Əvvəlcə Azərbaycanın İrandakı səfirliyinə qarşı həyata keçirilmiş terror hücumu zamanı şəhid olmuş səfirlik əməkdaşının və Türkiyədə baş vermiş zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə İƏT Nazirlər Şurasının bu il yanvarın 24-də Daşkənd şəhərində keçirilmiş 26-cı iclasının nəticələri müzakirə edilib və təşkilatın cari ildə Bakıda keçirilməsi planlaşdırılan 27-ci Nazirlər Şurasının iclası, eləcə də Özbəkistanda keçiriləcək XVI Zirvə görüşünə hazırlıqla bağlı məsələlər müzakirə olunub.

Ölkəmizin təşəbbüsü ilə iclasın gündəliyinə təşkilata bu il Azərbaycanın sədrliyinin həyata keçirilməsi ilə bağlı mövcud vəziyyətə dair yeni bənd daxil edilib. Qeyd olunan bəndin müzakirəsi zamanı Azərbaycan nümayəndə heyəti bu il yanvarın 27-də Azərbaycanın İrandakı Səfirliyinə qarşı törədilmiş terror hücumu ilə bağlı məlumat verib.

Terror aktını təşkil edənlərin və törədənlərin tezliklə müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi, eləcə də ev sahibi İran tərəfindən Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsinin, diplomatik nümayəndəliklərin mühafizəsi və təhlükəsizliyinin təmin edilməsinin zəruriliyi üzv dövlətlərin nümayəndələrinin diqqətinə çatdırılıb. Bu xüsusda İranın, həmçinin İƏT qərargahına evsahibliyi etdiyi vurğulanmaqla, İƏT Katibliyinin və İƏT üzv dövlətlərinin diplomatik toxunulmazlıqlarının təmin edilməsinin vacibliyi önə çəkilib.

Eyni zamanda diqqətə çatdırılıb ki, terror hücumu nəticəsində səfirliyimizin Tehrandan təxliyə edilməsi ilə əlaqədar İƏT DNŞ-nin iclaslarına fiziki olaraq sədrlik edilməsində məhdudiyyətlərin yarandığına baxmayaraq, 2023-cü ildə İƏT-ə sədrliyimiz çərçivəsində Azərbaycanın evsahibliyi ilə təşkil edilməsi planlaşdırılan tədbirlərin həyata keçirilməsi və sədrliyimizdən irəli gələn digər öhdəliklərin icrası tam təmin ediləcək.

İclasın sonunda Daimi Nümayəndələr Şurasının növbəti iclasının razılaşdırılmış tarixləri barədə iştirakçılara məlumat verilib.

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 27 noyabr (Çərşənbə günü) tarixli 50-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Çaharşənbə, 22 səfərülmüzəffər sənə 1337. 27 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rubledir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rubledir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## "AZƏRBAYCAN" QƏZETƏSİ İDARƏSİNDƏN

Mürəttib və qulluqçuların məvacibi artırılması və sair məxaricatın [xərclərin] çoxalmasından naşi [ötrü] "Azərbaycan" qəzetəsinin bu gün 27 təşrini-sanidən hər nüsxəsi 70 qəpiyə satılacağını qəzetə idarəsi ümuma elan edir.

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Maliyyə Nəzarətində**

- 19 təşrini-sani 1334, Baş kassa müdiri Okinçits qulluğa gəlmədiyinə görə, bu sənəsi təşrini-əvvəlin [oktyabrın] 26-dan həmişəlik qulluğundan kənar edilir.

- Bu sənəsi təşrini-əvvəlin 26-dan Statski sovetnik Krestnikov Baş kassa müdiri vəzifəsi ifasına buraxılır.

- Bakı şəhərinin 9-cu uçastokunun vergi müdiri Seminçenkov qulluğa gəlmədiyinə görə, bu sənəsi təşrini-saninin [noyabrın] 23-dən həmişəlik vəzifəsindən kənar edilir.

- Göyçay uyezdinin vergi müdiri Yele, bu sənəsi təşrini-saninin 23-dən Bakı şəhərində 5-ci uçastok vergi müdiri təyin edilir.

- Bakı şəhərinin 4-cü uçastok pristavı vəzifəsini ifa edən Hüseyn bəy Əbdürrəhman bəy oğlu Paşabəyov bu sənəsi təşrini-saninin 20-dən Göyçay uçastokunun vergi müdiri vəzifəsinə təyin edilir.

- Petroqrad Darülfününunu [Universitetini] ikmal etmiş [bitirmiş] Əkbər Sadıqov 900 manat məvaciblə bu sənəsi eylülün [sentyabrın] 22-dən Gürcüstanda olan Maliyyə Nəzarəti vəkilinin müavini təyin edilir.

- Maliyyə Nəzarəti dəftərxanasının qulluqçusu Abdulla Bağırov qulluğa gəlmədiyinə görə, bu sənəsi təşrini-saninin 18-dən həmişəlik vəzifəsindən kənar edilir.

- Müvəqqətən Gəncədə yaşayan İosif Balaşkevski bu sənəsi təşrini-saninin 15-dən Gəncə xəzinəsinə təyin edilir.

- Maliyyə Nəzarəti xəzinəsində olan mühasib müavinləri Aleksandr Yeqorov və Viktor Markovski həman şöbədə yuxarı məvacib alan mühasib müavinləri təyin edilir.

Hesabdar qulluqçulardan Ağaəli Mustafayev, Aleksandr Pozdnyakov mühasib müavinləri və dəftərxana xidmətçiləri Aleksandr Starosvetski və Levon Xomiçev hesabdar qulluqçu təyin edilirlər. Semyon Pavlov xəzinədə dəftərxana qulluqçusu təyin edilir. Bunlar hamısı bu sənəsi təşrini-saninin 11-dən hesab olunurlar.

- Bakı xəzinəsinin 1-ci sinif dəxldarı [kassiri] Qulam bəy Fətəliyev bu sənəsi təşrini-saninin 19-da 10 günün müddətinə məzuniyyətə buraxılır.

- Maliyyə Nəzarəti dəftərxanasının müvəzzisi [pul paylayanı] Nina Borisovna Kamenskaya bu sənəsi təşrini-saninin 22-dən hesabdar xidmətçi vəzifəsinə təyin edilir.

- Maliyyə Nəzarəti dəftərxanasının dəftərxana qulluqçusu Vladimir Şleyfer bu sənəsi təşrini-saninin 22-dən həman dəftərxanada müvəzzi təyin edilir.

- Gəncə xəzinəsinin hesabdar qulluqçusu Ədil Əliyarbəyov bu sənəsi təşrini-saninin 15-dən həman xəzinəyə 2-ci sinif mühasib (buxqalter) təyin edilir.

- Qazax şəhəri sakinəsi Zoya Lyapina Qazax xəzinəsinə gələn gündən yazıçı [katibə] təyin edilir.

- Gəncə xəzinəsinin 2-ci dərəcə mühasibi Sergey Şaşkov məzuniyyətdən qayıtmadığı üçün bu sənəsi təşrini-əvvəlin 24-dən qulluqdan kənar edilir.

- Siqnax xəzinəsinin hesabdar qulluqçusu Mixail Vişnyakov bu sənəsi eylülün 16-dan Zaqatal xəzinəsinə 2-ci dərəcə mühasib təyin edilir.

- Göyçay uyezdinin sabiq uryadniki [polis məmuru] İosif Mivedçev Göyçay xəzinəsinə gəldiyi gündən müvəqqəti hesabdar vəzifəsini ifa etməyə buraxılır.

- Göyçay xəzinəsinin hesabdar qulluqçusu Mixail Milyukovski naxoş olduğuna görə, öz ərizəsi mövcibincə [ərizəsinə əsasən] bu sənəsi təşrini-saninin 10-dan xidmətindən kənar edilir.

- Salyan xəzinəsinin baş mühasibi Qrunski bu sənəsi təşrini-saninin 23-dən 7 gün müddətinə məzuniyyətə buraxılır.

*Azərbaycan Maliyyə naziri*
*Məhəmmədhəsən Hacınski*

## İSTİQLAL

Çəkilən zəhmətlərin, tökülən qanların, yaxılan xanümanların, axıdılan göz yaşlarının bir təsəllisi vardı: istiqlal!

İstiqlal bir növ hürriyyəti-şəxsiyyədir [şəxsi azadlıqdır]. Millətin şəxsinə məxsus hürriyyət, fərdlər hürriyyəti, dövlətin və yaxud millətin səadəti nöqteyi-nəzərindən qüyud [qeydlər; bağlar, zəncirlər] və hüdud [məhdudiyyətlər] altına alınmaq fərz olduğu kimi, bəşəriyyətin səadəti üçün dəxi millətlərin hürriyyəti, təbiri-digərlə [başqa sözlə] istiqlalı, bir taqım qeydlərlə məhdud ola bilər.

Digər siyasi hürriyyətlər kimi millətlərin istiqlalı da insan övladının böyük məqsədini təşkil edən səadəti-bəşəri təmin edən yollardan birisidir. Dünya millətlərinin bir gün galib də məsud bir aileyi-mədəniyyət [mədəniyyət ailəsi] təşkil edəcəyi biz federalistlərə yabançı bir fikir deyildir. Millətlərin könül rizası ilə əqd edəcəkləri [bağlayacaqları] "Cəmiyyəti-Əqvam" [Millətlər Cəmiyyəti] fikri dünya federalistlərinin əski düşüncəsidir.

Rusiya həyati-siyasiyyəsində [siyasi həyatında] bu fikir başqa bir yolla qövldən feilə [sözdən işə] gətirilmək istənildi. Rusiya vəhdaniyyəti-siyasiyyəsi [siyasi birliyi] bütün nəvaqis [qüsurlarına] və mənfiyyatına [mənfi cəhətlərinə] rəğmən millətləri yekdigərinə [bir-birinə] rəbt edə [bağlaya] biləcək bir qəvi rabiteyi-mədəniyyə [mədəni bağlar] hasil etmişdi. Bundan istifadə edilmək istənildi. Rusiya millətləri arasında bir ittifaq əqd etmək, bir federasyon vücuda gətirmək fikri doğdu. Məhkum millətlərə mənsub olan federalistlər son dərəcədə sədaqət göstərərək bu məqsədin təhi bulunan yolundan sərfi-nəzər edərək, millətlərin kəndi hürriyyətlərini, məsələnin həllini Rusiya mütəfəkkirlərindən, Məclisi-Müəssisandan [Təsisçilər Məclisindən] gözlədilər. Məəttəəssüf [təəssüf ki], bu xüsusda "kadetlərdən" tutub, "bolşeviklərə" qədər bütün Rusiya partiləri məsələni sözdə bir, işdə başqa bir yolda "həll" etdilər. Nəticədə nə oldu? Orası həpimizə məlumdur. Rusiyanın məhkum millətləri kəndi başlarının çarəsinə baxmaq zərurətində qaldılar. Bu əlim [kədərli] zərurətlər həm Rusiyaya, həm də kəndisindən ayrılmış vilayətlərə pək bahaya mal oldu [baha başa gəldi]. Çox zərərlər, çox ziyanlar gördülər. Fəqət, istər-istəməz sabit bir fikrə gəldilər. İsbat olundu ki, Rusiyaya bir daha toplanmaq müqəddər [qaçılmaz] isə, bu təqdir yalnız millətlərin kəndi arzuları, kəndi qənaət və istiqlali-rəyləri [fikir azadlıqları] sayəsində mümkün olacaqdır.

Mənə "Rusiya vəhdaniyyəti-siyasiyyəsinə [siyasi birliyinə] girmək arzu edərmisiniz?" deyə sorsanız mən "əvət" cavabını vermədə heç tərəddüd etməm. Fəqət, "Bu vəhdətə nasıl girmək istərsiniz?" deyə məsələni qurdalasınız, biraz təəmmül edərəm [düşünərəm].

Qulağıma Məclisi-Müəssisan səsi gəlir: Ufa Hökumətindən bəhs edirlər. Bu bəhslərdən anlamam. Məclisi-Müəssisanın nisfi [yarısı] bolşeviklərdir ki, məclis əleyhindədirlər. Rusiyanın nazimi [nizam vericisi] olan Velikorossiya bu gün tamamilə onların əlindədir. Ufa Hökuməti nərədədir, o nasıl hökumətdir, bilməyirəm. Bu hökumətlə təyini-münasibat etmək [münasibət qurmaq] üçün ravilər [rəvayət danışanlar] deyirlər ki, qoşa dibli gəmilərin dibləri arasında səyahət edərək, yalnız bir aydan sonra məqsədə ərmək mümkün imiş. Bu Hökuməti Rusiyanın kəndisində tanıyan daha yox imiş. Bu Hökumət sollar tərəfindən qəbul edilmədiyi kimi, Milyukov belə bunun əleyhində imiş. Bu şəraitlə [şərtlərlə] toplanacaq Məclisi-Müəssisanın təsadüfi bir məclis olacağı bəllidir. Böylə təsadüfi bir məclisə Rusiya millətləri kəndi müqəddəratlarını nasıl tapşıra bilərlər? Burası əlbəttə ki, cai-sualdır [sual altındadır].

Hər millət kəndi müqəddəratını təyin etmək səlahiyyətinə malikdir. Rusiya inqilabının düsturu bu. Etilaf dövlətlərinin rəisi-cümhur [prezident] Vilson ağzı ilə təyin eylədiyi şüar da budur. Böylə ikən bizzərurə [zərurət qarşısında] istiqlalını elan eyləmiş bulunan Rusiya qitələrini [regionlarını] təkrar uyuşduracaq, barışdıracaq, aralarını bulacaq, onlardan müttəfiq və müvafiq bir kütlə vücuda gətirəcək müəssisə nə ufaçıların təsəvvür eylədiyi məhud [vəd edilmiş] "Məclisi-Müəssisan", nə də bolşeviklərin "sovet"ləridir. Böylə bir səlahiyyəti olsa-olsa yalnız Rusiya "Müəssislər Konqresi" haiz ola [daşıya] bilər. Bu müəssisə 1917-ci sənədə intixab olunan [seçilən] bir Məclisi-Müəssisanın qırıq-tökük tətimməsi [əlavəsi] deyil, birər hökumət vücudu təşkil etmiş milli üzviyyətlərin [orqanların] müsavi [bərabər] surətdə göndərmiş olduğu mürəxxəslərdən [nümayəndələrdən] təşəkkül edə bilər...

Fəqət bu fikir, Rusiyadan ayrılıb da kəndi həyatlarını qurtarmağa çapalayan millətləri, ümumi sülh konqresinin təmin edə biləcəyi füyuzatdan [feyzlərdən] məhrum etməməlidir. Millətlər sülh konqresini buraxıb da hərc-mərc içində yuvarlanan Rusiyanın kim bilir qaç zaman sonra hali-təbiisinə gələcəyini gözləyə bilməzlər. Onların birər üzviyyəti-siyasiyyə [siyasi orqan, hissə] olub da rəy [səs] sahibi bir vücud olmalarının sülhi-ümumi konqresincə [ümumi sülh konqresi tərəfindən] təsdiqinə böyük bir ehtiyac vardır. Bu ehtiyacdan onları kimsə mən edəmməz [uzaqlaşdıra bilməz]. Bilxassə [xüsusilə] ki, konqre[s]cə şəxsiyyəti təyin olunmuş siyasi üzviyyətlər daha böyük bir əmniyyət [inam] və etibarla əqdi-ittifaq edər [ittifaq bağlayar] və həqiqətən də mütəqabil [qarşılıqlı] bir etibar üzərinə uyuşar, müştərək bir birlik vücuda gətirə bilərlər. Çünki o zaman ittifaqa girəcək hər bir üzviyyət kəndi vəziyyətini beynəlmiləl bir vəsiqə ilə əmin görəcəyindən, kəndisini daha qüvvətli olan üzviyyətlərin təzyiqinə qarşı qüvvətsiz görmədiyindən, qərarlarında daha sərbəst, binaileyh [dolayısıyla] daha səmimi olar.

Türkiyə ilə əqd olunmuş [imzalanmış] mütarikənin [atəşkəsin] məvaddını [maddələrini] tətbiq və Qafqaziya qitəsi üzərində təmini-asayiş etmək məqsədi ilə gələn Müttəfiq ordularının komandanı müsyö Tomsonun son bəyannaməsi dəxi məsələnin bu zəmində həll olacağını göstərməkdədir. Müsyö Tomson, "Qara dənizlə bəhri-Xəzər arasında vaqe olan ərazinin son müqəddərati-siyasiyyəsi [siyasi taleyi] sülhi-ümumi konqresində həll olunacaqdır", deyir.

"Millətlər kəndi müqəddəratlarını təyin eyləmək səlahiyyətindədirlər" şüari-müqəddəsini [müqəddəs şüarını] yıldızlı bayrağının üstündə cəli xətlə [qalın hərflərlə] yazmış olan Vilson həzrətlərinin müttəfiqi, bütün dünya hürriyyətpərvərləri [azadlıqsevərləri] tərəfindən tarixi-inqilabı bir kitabi-müqəddəs kimi oxunan Fransanın silah arxadaşı, əsasi-idarəsi muxtariyyət və hürriyyət əqaniminə [üqnümlərinə; prinsiplərinə] istinad edən Britaniya ordusunun komandanı başqa dürlü hərəkət edəmməzdi. Bu gün Qafqaziya ərazisi üzərində həqqi-hayat və həqqi-mililllərindən bilistifadə [istifadə edərək] elani-istiqlal etmiş bulunan Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistan ərazisi və mülkiyyətindən bəhs olunmayırsa, bunun səbəbi bir dərəcəyə qədər bəllidir. Çünki bu yeni təşəkkül edən hökumətlər Müttəfiqlər tərəfindən hələ tanınmamışdır, fəqət bu tanınmamaq sülhi-ümumi konqresində tanınmayacaqlarına, əlbəttə dəlil olammaz. Fövqəzzikr [yuxarıda deyilən] bəyannamə bu kimi məsələlərin həllini ümumi sülh konqresinə həvalə edir.

Sülh konqresindəki müvəffəqiyyətimiz isə kəndi idrakımıza, dirayətimizə, rəftar və səbatımıza bağlı bir məsələdir. Kəndi istiqlalımızı, qonşularımızın da istiqlalını, kəndi hürriyyətimizi, onların da hürriyyətini təqdir və təqdis edəlim [müqəddəs qəbul edək]. Bu vaxta qədər tərəfeynin [hər iki tərəfin] işlədiyi qəbahətləri unudalım, ermənilərlə, ruslarla, bütün vətəndaşlarımızla, gürcü qonşularımızla olan məsələlərimizi sülh və müsalimətlə [əmin-amanlıqla] bitirəlim. Adam-ağıllı [ağıllı-başlı], Avropakari [Avropa tərzində] bir idarə, bir məclis, bir hökumət təsis edəlim də həman Amerikaya, Avropaya adamlar göndərəlim, isbati-ləyaqət [ləyaqətimizi isbat] edəlim, deyəlim ki:

Çəkilən zəhmətlərimizin, tökülən qanlarımızın, yaxılan xanümanlarımızın, axıdılan göz yaşlarımızın yalnız bir təsəllisi var:

İstiqlal!

*M. Ə. Rəsulzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**(14 təşrini-sanidə [noyabrda] "Royter" ajansı məlumatı)**

**Klemansonun isticvabı [sorğusu]**

Klemanso Paris Darülfününunun [Universitetinin] Hüquq şöbəsi müdirinə müraciətlə, kayzer Vilhelmin təslimini tələb etməyin beynəlmiləl qanunca caiz [yolverilən] olub-olmadığını sual etmişdir.

**Ehtiyatkaranə tədbirlər**

Brükseldə almanlar tərəfindən göründüyü xəyanətdən dolayı hər yerdə Müttəfiqlər orduya münasib ehtiyatkaranə tədbirlər ittixaz edirlər [görürlər].

Namur nəhri boyunda Köln şəhəri üzərinə ingilislərin bir tərəfdən yürüdükləri halda, digər tərəfdən də üç ingilis ordusu hər bir təsadüfə qarşı hazırlanırlar.

**Almaniyada aclıq**

Milli Hökumət üzvü Şeydeman Almaniyada ərzaq qəhətliyi haqqında yazdığı elani-ümumisində Almaniya xalqı üçün Etilaf dövlətləri lazımi ərzaq göndərsələr, alman xalqı bunlara çox minnətdar olacağını söyləyir. Komissiya Laheydə olan Amerika səfiri yanına gedib, bizim əzab və məşəqqətə bir intiha çəkmək [nəhayət vermək] üçün kömək göndərilməsini biraz tələsdirməlidir. Heç bir vaxt müharibə indiki kimi, böylə qəddaranə və xalqın həyatına və məişətinə təcavüz edən böylə bir dairədə olmamışdır. "Aclıq" müharibəsi bizim qadınlara və çocuqlara qarşı ən rəhmsiz və amansız mübarizədir. Bunun xəsarəti, qanlı müharibələr nəticəsindəki xəsarətdən möhlikdir [daha öldürücüdür]. Bu müharibənin gələcəkdə bizə bağışlayacağı nəticələri görmək üçün analarımıza və çocuqlarımıza baxmaq bəsdir. Aclıqdan, qansızlıqdan tövlid edən [törəyən] ənva [növbənöv] xəstəlikdən hamilə qadınların iyirmi faizi tələf olmuşdur. Gündə yarım litr südlə çocuqlar da doymadığından, bunlar da aclıq bəlasına mübtəla olmuşlar. Böylə ki, aramızda ölüm ittifaqı [hadisələri] otuz faizə varmışdır. Ana və çocuqların miyanında [arasında] aclıq tam mənası ilə hökmfərma [hökmran] olmaqla bir çox qurbanlar alır. Həqiqətən, Almaniya hazırda müdhiş [dəhşətli] bir hal keçirməkdədir. Son atəş açılması ilə tərəfi-müqabil [qarşı tərəf] üçün xitampəzir olduğu [sona çatdığı] halda, bizim xalq üçün müharibə öz arasından hələ qurtarmamışdır. Həqiqi sülh bizim üçün fəhlə qüvvəsinin yenidən dirilməsi ilə və lazımi ərzaq almaqla olacaqdır.

**Moqilyov, 15 təşrini-sani**

Minskdən verilən məlumata görə, şəhər inqilabçı alman qoşunları tərəfindən işğal edilmişdir. Saldat nümayəndələri şurası təşəkkül tapmışdır. Almaniya Fəhlə və Əsgər Şurası bütün Fransa, İngiltərə, İtaliya və amerikalılara bir müraciətnamə təb' və nəşr etmişdir [çap etmiş və yaymışdır]. İşbu müraciətnamədə deyilir:

*"Biz sabiq düşmənlərimizin hisslərinə müraciətən [müraciət edərək] sipərlər üzərindən qardaşlıq əllərimizi onlara uzadırıq. Fəhlə öz hökumətlərinə nüfuz yetirməlidirlər ki, gələcək sülh, qardaşlıq sülhü olsun. Almaniyanı aclıq ölümünə məruz buraxan mütarikə şəraitini [atəşkəs şərtlərini] yüngülləşdirmək üçün çalışınız. Çalışınız ki, gələcək sülh millətləri təbah [məhv] etməsin."*

**Alman Xariciyyə nazirinin müraciəti**

Alman Xariciyyə naziri Vaşinqtonda Baş katib [Dövlət katibi] Lansinqə böylə bir müraciətdə bulunmuşdur: Almaniya Hökuməti və alman camaatı Amerika rəisi-cümhurunun [prezidentinin] Almaniyaya ərzaq şeyləri göndərilməsinə razı olduğundan məmnuniyyətlə xəbərdar olmuşlardır. Ehtiyac xeyli təcilidir. Ağır mütarikə şəraitinin [atəşkəs şərtlərinin] qəbulu, cəbhədən axıb gəlməkdə olan ordunun Almaniya daxilində olan ərzaq mövcudu ilə təmini, abluka [mühasirə] davamına görə Şimal və Baltik dənizləri münasibatının [əlaqəsinin] dayandırılması gün-gündən bizim halımızı müşkülata salmaqdadır. Hərc-mərclik təhlükəsi ancaq təcili müavinətlə [köməklə] rəf ola [aradan qaldırıla] bilər. Buna binaən [görə], sizdən rica edirəm ki, alman camaatını aclıq və anarşi həlakətindən [öldürücü, həlak edici təhlükədən] xilas etmək və vətənimizi bu pis haldan qurtarmaq üçün Amerikanın nə cür müavinəti olacağını aşkar etməkdən ötrü Laheyə və ya başqa bir yerə, al-man vəkilləri [nümayəndələri] yanına Amerika vəkillərinin göndərilməsi xahişimi Cümhuriyyət rəisinə yetirəsiniz. Ola bilər ki, mümkün olduğu təqdirdə müavinət işləri təcrübəli və məşhur Stuverə tapşırılsın.

**Alman Bitərəf Firqəsinin dəvətnaməsi**

Alman Bitərəf Sosial-Demokrat Firqəsi "Beynəlmiləliyyətə, fəhlələrə, firqə yoldaşlarına" ünvanlı dəvətnamə nəşr etmişdir. Bu dəvətnamədə əvvəlcə Almaniya inqilabının səbəblərindən və məqsədlərindən bəhs olunub, sonra ağır mütarikə şəraitinin [atəşkəs şərtlərinin], qardaşlıq və azadlıq əsasında təzə həyat bərpa edilməsini müşkülata salması təsdiq edilmişdir. Dəvətnamədə deyilir ki:

*"Brest-Litovsk sülhünə razı olan alman siyasiyyunları [siyasətçiləri], Müttəfiq dövlətlər[in] onları təzyiq altına almalarından şikayət etməyə haqlı deyildirlər. Beynəlmiləl ictimai əhval tərəfindən bizə verilmiş olan məzkur [adı keçən] sülh müahidənaməsi [müqaviləsi], həmçinin Bükreş müahidənaməsi əleyhinə var qüvvəmizlə mübarizə edirdik. Bu təcavüzü dəf etməkdən ötrü kifayət qədər qüvvətli olmadığımızı ürək sıxıntısı ilə hiss edirik. Bu səhvi düzəltmək arzusu bizdə inqilaba bais olan bir qüvvə oyandırdı. Dünya rus militarizmindən azad olduğu halda, bizim məmləkətimizdə təcavüz və təərrüz [hücum] siyasəti əleyhinə və təzə müharibələr təkrar olmasına imkan verməmək üçün mübarizədə bulunmaq növbəsi sizindir. Bizim öhdəmizə buraxılan ağır şəraiti qəbul etməklə lüzumiyyət qarşısında əyiliriz. Mütarikə şəraitinin ağırlığından sizə şikayət edib, bu tövr təcavüz və təərrüzlərin bərtərəf edilməsi [dəf edilməsi, aradan qaldırılması] üçün mümkün qədəri çalışacağınıza əmin oluruq."*

* * *

- Almaniyada bir çox hersoq və knyazlar hökumət işlərindən əl çəkməkdədirlər. Saldat Vəkilləri Şurası hər yerdə hökuməti öz əlinə almaqdadır. Hersoq və knyazların əmvalı [malları] bir çox yerlərdə zəbt edilir.

- Amerika Beynəlmiləl [Hüquq] İttifaqının üzvü doktor Karl Strupp, Amerika rəisi-cümhuru [prezidenti] Vilsona böylə bir müraciətdə bulunmuşdur:

*"1917 sənəsi aprelin 2-də, Konqre[s]də söylədiyiniz nitqdə izhar etmişdiniz ki, alman milləti ilə müharibə etməyirsiniz və sizin alman millətinə məhəbbət və mehribançılıqdan başqa bir hissiniz yoxdur. Amerikanın müharibə elan etdiyi hökumətlər dəxi yoxdur. Hal-hazırda alman milləti ancaq azad olmağı və sizin təntənəli bir surətdə elan etdiyiniz Millətlər İttifaqı əsasınca hamı millətlərlə sülhlə yaşamağı arzu edir. Lakin, mütarikə şəraitindən [atəşkəs şərtlərindən] aclığa məruz olan alman milləti üçün yaşamaq və ya Millətlər İttifaqına daxil olmaq heç mümkün deyildir. Buna binaən [görə], səmimiyyətlə sizdən acizanə rica edirəm ki, müttəfiqlərinizi insanlığa yaxışmaz ağır şəraitdə isrardan vaz keç[ir]mək üçün icrayi-nüfuz edəsiniz [nüfuzunuzdan istifadə edərək onlara təsir göstərəsiniz]."*

* * *

- Liondan xəbər verirlər ki, İngiltərə ilə Fransa arasında əqd edilən [bağlanan] müahidəyə [sazişə] görə İngiltərə Hökuməti Fransaya yarım milyon ton həcmində təzə gəmi vermişdir.

- İngiltərə mətbuatının verdiyi xəbərə görə, Məclisi-Əyan [Lordlar Palatası] ilə Parlament üzvlərinin müttəhid [birgə] iclasında Lloyd Corc qəti surətdə təkid etmişdir ki, qalibiyyət, məsai [əmək] və hasilat [istehsalat] təşkilatlarının şüarı ilə münasibəti olan islahatdan ötrü istifadə olunmalıdır. Lloyd Corc hal-hazırda hökmfərma [hökmran] olan inqilab ruhundan bəhs edib deyir ki, mən bolşevizmdən və inqilabdan qorxmayıb, ancaq ixtilaflara [fikir ayrılığı] və irticadan ehtiyat edirəm.

- Rəisi-cümhur Vilson Konqre[s] palatalarının hər ikisində mütarikə şəraitini [atəşkəs şərtlərini] elan etdikdə, Mərkəzi hökumətlərin əhvalını yüngülləşdirməkdən ötrü, insaniyyətpərvəranə iqdamat götürüldüyünü [addımlar atıldığını] xəbər vermişdir. Vilson sülh şərtlərinin uzadılması haqqında öz bədbinanə nəzərində demişdir ki: "Hərgah alman milləti sülh sazişi yolunu tutub və ixtilafiaranı [fikir ayrılığını] bərtərəf etsə [aradan qaldırsa], Müttəfiqlər hər cür müavinətdə [köməkdə] bulunmağa çalışarlar.

- Kantemirovka, 17 təşrini-sani. Bir kazak alayı cəbhəyə getməkdən imtina etmişdir. Üsyançılar tövqif [həbs] edilərək üsyan yatırılmışdır. Alınan məlumata görə, hərbi əsirlər Bryansk tərəfinə yürüyürlər. Almaniya və Avstriyadan 400 minədək rus əsirləri gəlməkdədirlər. Bunları doydurmaqdan ötrü teleqrafən [teleqraf vasitəsilə] əmr verilmişdir. Tula-Oryol-Bryansk xətti ilə 100 minədək əsir gəlməkdədir. Tədabir ittixaz edilməzsə [tədbirlər görülməzsə], ətraf əhalisinə böyük xəsarətlər yetişəcəkdir.

- Berlində olan Əmələ [Fəhlə] və Saldat Vəkilləri Şurasının icraiyyə komitəsi bir para firqələrin arzu etdikləri kimi xalq qvardiyası təşkilini lüzumsuz görmüşdür. Çünki əsgərlər özləri izhar etmişlər ki, onlar Əmələ və Saldat Vəkilləri Şurasının əmrinə görə hər vaxt inqilab fütuhatını [nailiyyətlərini] mühafizə üçün qanlarını tökməyə hazırdırlar.

- Berlində olan hamı əsgəri təşkilat və Dobritz hava dəstəsi ilə Köniqsberq Birinci qolordusu nümayəndələrinin iştirakı ilə vaqe olan saldat ictimasında [yığıncağında] çağırılması lazım gələn və məşrutiyyətin birinci əsası olan Milli Şuranın dəvətini Hökumətdən tələb etmək təklifi müttəhidülqövl [yekdilliklə] qəbul olunmuşdur.

- Londonda xəbər verirlər ki, mütarikə [atəşkəs] imzasından sonra 14 gün ərzi-müddətində almanlar hamı sualtı qayıqlarını 10 zirehli, 6 böyük kruvazer [kreyser], 8 yüngül kruvazer və 50 dənə yeni minanosları [torpedo gəmisini] Müttəfiq dövlət limanlarına gətirməyə söz vermişlərdir.

## QƏZETƏLƏRDƏN

**Müttəfiqlərin hücumu**

Petroqraddan verilən məlumata görə, Müttəfiqlər işbu günlərdə Arxangelsk yolunu tutmaq istəyirlər. Müttəfiqlərin Şenkursk-Velsk dəstələri qərbə tərəf yürüməkdən ötrü lazımi hazırlığı görmüşlər.

**Hacı-Tərxan nahiyəsində**

Bolşeviklərn mürəvvici-əfkarı [fikirlərini yayan, mətbuat orqanı] olan "K. Q." xəbər verir:

"Hacı-Tərxan təhlükə altındadır. İdil nəhrindən əlaqəmiz kəsiləcəkdir. Ağ qvardiyalılar Hacı-Tərxan dəmiryolunu tutmuşlardır. Üçüncü və yeddinci şura alayları firar etmişlər. Svetlı Yarda macar taboru düşmənlər tərəfinə keçmişdir."

**Şuranın yandırılması**

Jizdredə (Kaluqa quberniyasıdır) azad bazar satışı mən [qadağan] edildiyindən, kəndçilər Şura mülkünə neft töküb yandırmışlardır. 8 komissar, 16 xidmətçi tələf olmuşdur.

**Ermənistanda səfərbərlik**

Ermənistan Hökuməti 20-25 yaşınadək bütün cavanları təcili surətdə təhti-silaha [silah altına] dəvət etmişdir.

## CƏFƏROVUN İSTİZAHI [İZAHAT TƏLƏBİ]

Gürcüstan Cümhuriyyət Hökuməti nəzdində Azərbaycan siyasi nümayəndəsi Məhəmməd Yusif Cəfərov cənabları Gürcüstan Xariciyyə Naziri Gegeçkoriyə böylə bir məktub göndərmişdir:

*"Hörmətli, Yevgeni Petroviç!*

*"Kafkazskoye slovo" qəzetəsinin 15 noyabr tarixli 247-ci nömrəsində "Aşxatavor" qəzetəsindən biltərcümə [tərcümə edilərək] "Müvaziəkarlar" [bəhsə girənlər; yalandan mübahisə edənlər] ünvanlı bir məqalə dərc edilmişdir. Bu məqalədə Azərbaycan Cümhuriyyəti və onun məsul nümayəndələrinə qarşı bir çox yalan təərrüzlər [hücumlar] və "türk muzduru Xoyskilər və Cəfərovlar", "Azərbaycanın böyük və kiçik sultanları cəllad Xoyskilər və Cəfərovlar", "Azərbaycan demokratiyası cəlladları", "30 min məqtul[un] [qətl edilmiş şəxsin] cəlladları" "cəhənnəm quyuları müxtereləri" [ixtiraçıları, yaradıcıları] və sairə kimi föhşlər [söyüşlər, təhqirlər] yazılmışdır.*

*Yenə həmin "Kafkazskoye slovo" qəzetəsinin 16 noyabr tarixli 248-ci nömrəsində "Aşxatavor" qəzetəsindən müqtəbəs [iqtibas edilmiş, götürülmüş] "Cəhənnəm quyuları" ünvanlı bir məqalədə dəxi, Azərbaycan Cümhuriyyəti barəsində yenə o məzmunda sözlər yazılaraq 30 min adam[ın] qətli təkid edilir və deyilir ki: "Xoyskilər, Cəfərovlar hökumətinin yaratdığı cəhənnəm quyularını ən böyük canilərin belə fikri, zehni götürməz."*

*Gürcüstan Cümhuriyyəti Xariciyyə Nəzarəti başında durduğunuz üçün bu xüsusu sizə xəbər verərək sual edirəm. Gürcüstan paytaxtında nəşr olunan bir qəzetədə əcnəbi və Gürcüstanın dostu olan bir dövlət və onun məsul nümayəndələri haqqında böylə hücumlar və föhşlər yazılmasını caiz [uyğun, icazə verilən] görürmüsünüz? Və əgər görmürsəniz, o halda Hökumətiniz Azərbaycan Cümhuriyyəti, onun Rəisi-vükəlası [Baş naziri] və siyasi nümayəndəsini qəzetələr[in] föhş və iftiralarından nə kimi tədbirlərlə təmin edə biləcəkdir?"*

## BAKI XƏBƏRLƏRİ

- Srağagün xüsusi qatarla Hökumət sədri Tapa Çermoyev başda olmaq üzrə Şimali Qafqaziya mürəxxəsləri [nümayəndələri] Bakıya varid olmuşlardır [gəlmişlər]. Bunlar general Tomsonla Şimali Qafqaziya haqqında müzakirəyə girişmək üçün gəlmişlərdir.

- Ərzaq Nəzarəti Dərbəndə aparmaq üçün Hacı M. Məhəmmədnağı oğluna 30 min papiros, 3 put maxorka, 5 put yarpaq tütün, 1 yeşik sabun, 3 put tütün, 5 yeşik giliz, 10 put maya (xəmir mayası), 2 qutu papiros kağızı, 10 top çit, 100 put şüşə mal, 3 qutu maxorka kağızı, 5 put xirid malı [xırdavat], 20 put çay, 1 put istiot və 10 yeşik nar Bakıdan çıxarmaq üçün imtiyaz vermişdir.

- Maliyyə Nəzarətində tənbəkiyə yeni vergi təyinindən ötrü layihə tərtib verilməkdədir. Layihə tərtib verildikdən sonra, təsdiqdən ötrü Nazirlər Şurasına təqdim ediləcəkdir. Şimdilikdə [ölkədən] çıxarılacaq mallara vergi, mədən vergiləri təyin etmək məsələsi həll ediləcəkdir.

- Bələdiyyə İdarəsinin Hökumət nəzdindəki köhnəlmiş Bakı pullarının Hökumət Bankasında qəbul olunması barəsindəki təşəbbüsatına Maliyyə Nəzarəti xəbər vermişdir ki, bu barədə lazımi binagüzarlıqlar [sərəncamlar] olunmuş və olunacaqdır. İki lisanda soqaqlara elan yapışdırılaraq parçalanmış pulların alınması əmri veriləcəkdir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 27 noyabr (Çərşənbə günü) tarixli 50-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

- Britaniya Hökumətinin düsturüləməli [tapşırığı] ilə İrandakı Britaniya ərzaq təşkilatı Bakı əhalisindən ötrü xüşkbar [quru meyvə], düyü və lobya alır. Böyləliklə hər həftə Bakıya 40 min put ərzaq gətiriləcəkdir.

- Kəsbkarlar İttifaqının [Həmkarlar İttifaqları Şurasının] sədri "Türk Ocağına" müraciət edib fəhlə klubu və əşyasını təhvil verməyi təklif etmişdir. "Türk Ocağı", Kəsbikarlar İttifaqının nümayəndələrini müzakirata [danışıqlara] dəvət etmişdir.

- Təşrini-saninin [noyabrın] 25-də bütün Port dairəsi [fəhlələri] səhərdən tətil elan edərək eylül [sentyabr] ayının məvaciblərini tələb etmişlər.

- Britaniya Hökuməti əmri ilə Bakı ilə Ənzəli miyanında [arasında] həftədə dörd vapor işləyəcəkdir.

- Mərkəzi Ev Komitəsi cənbindəki [nəzdindəki] Ərzaq şöbəsinin Britaniya Hökumətinə verdiyi məlumatdan anlaşılmışdır ki, Bakı və ətrafında 350 min əhali yaşayır.

- İşbu günlərdə Bakıdakı erməni ziyalılarının bir neçə iclası olmuşdur. İclasda Bakı Erməni Zəhmətkeş Ziyalılarının İttifaqı nam [adlı] təşkilat barəsində müzakiratda bulunulmuşdur. Axırıncı iclasda 40 nəfərə kimi ünas [qadın] və zükur [kişi] iştirak etmişdir. İttifaqın məqsədi, erməni milləti miyanında [arasında] iqtisadi, cismi [fiziki] və mədəni məsələlərin təbliği və qonşularla əlaqeyi-dostanə peyda etməkdir. Xüsusi bir komission intixab edilmişdir [seçilmişdir] ki, nizamnamə tərtib versinlər. Komissiona Taqyanosov, Manandyan, Kara-Murza və İşxanyan intixab edilmişlər.

*Ədəbi sütunlar*

## MƏHTABİ-ŞİTA

*Karpat xatirələrindən*

**1**

Doğmuş o yanda bir ay, ruyi-münəvvərilə
Rə'si-cəbəldə cazib vəchi-müdəvvərilə
Getdikcə yüksəlirdi parlaq fəzaya doğru
Ol aləmi-büləndü-heyrət-fəzaya doğru
Pək çox da cazib idi rüxsari-feyzkarı
Aydınlatırdı xaki ruyi-nigəh-şikarı
Rövnəq-füruzi-ülvi, mehtabi-zilətafət
Vermişdi dağa-daşə nur ilə bir ziyafət
Guya qucaq-qucaq həp sərpilmiş idi kövkəb
Pək şairanə idi ol leyləyi-mükövkəb
Yer bəmbəyazdı qarla, ətraf cümlə kuhsar
Dağlar, əvət o dağlar həp abidati-ə'sar
Maha baxıb dururkən gəldi şu söz dodağa:
Türk aləmi yıxılmaz, bənzər dedim şu dağa
Bir gün qaçar qaranlıq, millət hilalı parlar
Fatehlərin, Səlimin nuri-cəlalı parlar
Məşriq yerində parlar mahi-zəfər-nümamız
Bir gün görər hilalı müzlim qalan səmamız
Bir gün gələr şu yurda bir zümreyi-rəhamız
Azad olar, əminəm, bu ərzi-pürbəhamız
Azadə bir həyata məzhər olar bu millət
Əlbət ölər əsarət, əlbət ölər bu zillət.
Ölsün deyirdim iştə zülmü sitəmkaranın
Olsun cahana varis tiği müzəffəranın.

*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## GÜRCÜSTANDA

"Qruziya" qəzetəsinin 19 təşrini-sani [noyabr] tarixli nömrəsində işbu xəbər nəşr edilmişdir:

Tiflisdə mövsuq [etibarlı] mənbələrdən xəbər alınmışdır ki, İngiltərə və Fransa hökumətləri Gürcüstanın istiqlaliyyətini əsasən təsdiq etmişlərdir.

*İdarədən: Biz bu xəbərin doğru olduğunu bilmirik. Fəqət, hər halda biz inanırıq ki, Gürcüstanla bərabər başqa Qafqaziya cümhuriyyətlərinin də istiqlaliyyətini Müttəfiqlər qəbul və təsdiq edəcəklər.*

**Dinamit**

Təşrini-saninin 13-də Tiflis tramvay mövqifinin [stansiyasının] yanında fəhlələr tərəfindən yerə basdırılmış bir put dinamit tapılmışdır. Dinamit tapılan yerdə milli qvardiyadan qaraqol [qarovulçu, keşikçi] qoyulmuşdu. Təşri-nisaninin 14-cü gecəsi qaraqola naməlum bədəfkarlar tərəfindən ataş açılaraq yüngül surətdə yaralanmışdır.

Təşrini-saninin 17-də Tiflisdə Vere körpüsünün sağ tərəfində dinamit gülləlləri tapılmışdır. Məhəlli-hadisəyə [hadisə yerinə] milisiya müdiri Uruşadze, general-qubernator Mazniyev gəlmişdir.

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm! Acizanə rica ediriz, bizim bu bir neçə kəlmə ərzimizə qəzetənizin bir guşəsində yer verəsiniz.

Məlum olduğu üzərə beş gündən ziyadədir ki, Azərbaycan dəmiryolunun "Sanqaçal-Buta" hissəsi xarab olub, hərəkat kəsilmişdir. Lakin, buna baxmayaraq məzkur [adı keçən] dəmiryol idarəsi nədənsə sərnişinlərə Bakı mövqifinə [stansiyasına] qədər bilet satmaqda davam edir. Böylə ki, bu günlərdə biz 300 nəfərə kimi sərnişinlər (arvad, uşaq və kişilərə) Gəncədən Bakıya qədər bilet satdılar. Biz isə yolların xarab olmasından xəbərdar deyildik. Hacıqabul mövqifinə çatdıqda, bizə yolun xarab olmasını məlum edib düşürtdülər. Orada bir çox azar və əziyyət çəkdikdən sonra böyük zəhmətlərlə piyada olaraq Bakıya gəldik. İndi bununla möhtərəm dəmiryol idarəsindən sual ediriz. Mümkün deyildi ki, sərnişinlərə yolun xarab olmasını bildirib və vaqon gedən mövqifə qədər bilet satılaydı və xırda uşaqlar və arvadları bu qədər əziyyətə düçar etməyəydilər? Sərnişinlərin çəkdiyi əziyyət intəhasızdır, təsvir etmək mümkün deyildir. Hər halda Dəmiryol İdarəsi məmurlarının öz işlərinə laqeyd baxmalarına təəccüb etməlidir. Binaileyh [ona görə], nazir həzrətlərinin diqqətini böylə nöqsana cəlb etməklə lazımi tədbirlər ittixaz edilməsini [görülməsini] rica edirik.

*İmzalar*

## ELAN

Bakı İkinci zükur [oğlanlar] gimnaziyası cənbində [nəzdində] kamilən [tamamən] milliləşmiş əlifba şöbəsi açılır. Bu şöbəyə daxil olan çocuqlar türkcə təlim alacaqlar. Əhalinin nəzəri-etinası [diqqəti] bu milliləşmiş əlifba şöbəsinə cəlb olunaraq, uşaqlarını qeyd etdirəcəklərinə ümid ediriz. Qeyd etdirmək istəyənlər məktəbin dəftərxanasına müraciət edə bilərlər.

*725 7-3*

## ÇAY-QƏND

Bakı Şəhər İdarəsi bununla aşağıdakı kəndlərin vəkillərinə elan edir ki: Əhmədli, Keşlə, Zığ, Biləcəri, Binəqədi, Digah, Şağan, Pirşağı, Məhəmmədi, Fatmayı, Türkan, Güzdək, Nardaran, Bilgəh, Xırdalan, Xocahəsən, Buzovna, Qobu, Zirə, Kürkənd, Qala, Şüvəlan, Goradil, Maştağa, Hövsan, Novxanı, Kürdəxanı, Hökməli, Mərdəkan və Binə kəndlərinə bu gələn dekabr ayının 7-dən 12-ədək Ərzaq şöbəsinin anbarlarından çay və qənd veriləcək ki, camaata paylansın. Hər adam başına yarım (1/2) girvənkə qənd və bir asmuşka (1/8) çay.

Fiatı: Qəndin girvənkəsi 3 manat və çayın girvənkəsi 28 manatdan.

Ona binaən [görə] yuxarıda yazılan kəndlərin vəkillərinə təklif olunur ki, indi kənddə olan camaatı siyahı edib hazırda nə qədər adam olduğun[u] adbəad və hər külfətdə neçə nəfər olduğun[u] iki vərəqdə, yəni iki ədəd siyahıda yazsınlar. Siyahı vərəqəsinin biri vəkildə qalır, o biri vərəqi nə qədər çayın və qəndin pulu eyləyirsə camaatdan yığıb, yığılan pul ilə bərabər kəndin vəkili "Natsional" qəstinəsindəki [mehmanxanasındakı] Ərzaq şöbəsinə verib, çay, qənd almaqdan ötürü qəbz (order) almalıdır.

Kəndlərin vəkilləri kənd camaatından qənd və çay almağa şəhadətnamələri almalıdır. Camaatın siyahı vərəqəsi kənd kəndxudasının imzası və möhürü ilə təsdiq olunmalıdır. Kəndxuda, vəkil və qeyri adamlar hansılar ki, külftədə olan adamları doğru göstərməyələr və ya qənd, çayı paylayan vaxt doğruluqca bulmayanlar təftiş olandan sonra onlara çay və qənd verilməyəcək və ondan əlavə dava zamanında olan qanuna görə [müharibə dövrünün qanunlarına görə] şiddətli cəzaya mübtəla olacaqlar.

Siyahı vərəqəsi dekabr ayının 12-dək Ərzaq şöbəsinə təqdim olunmalıdır. Ayın 12-dən sonra heç şey verilməyəcək və vəkilləri və ya qeyri adamları bu tarixdən sonra Ərzaq şöbəsi qəbul etməyəcək. Qənd və çay kəndə gəldikdən sonra kəndxuda və vəkil qənd, çayı siyahı üzü ilə camaatın hüzurunda elan olan qədər, yəni bir adam başına 1/2 girvənkə qənd, 1/8 çay paylamalıdırlar.

*Bakı, 26 noyabr 1918*
*Ərzaq şöbəsi*
*6/7*

## MALİYYƏ NƏZARƏTİNİN ELANI

Azərbaycan Cümhuriyyəsinin hamı alış-verişçilərinə elan olunur ki, bandrolsuz tənbəki, papiros və siqaralar satmaq, necə dükanlardan və əldə satmaq üçün və bu malları həm Bakıdan çıxartmaq Hökumət tərəfindən məmnudur [qadağandır]. Hamı yuxarıda sayılan malları alış-verişçilər gərəkdir, yeddi gün ərzində xəbər versinlər mövqe gömrük idarəsinə ki, o mallardan gömrük alınsın. Əgər alış-verişçilər özləri istəsələr öz mallarına bandrol vursunlar, gərəkdir yeddi gündə versinlər, əgər verməsələr bu mallar Hökumət tərəfindən zəbt olunub kəndiləri həm Hökumətə cavabdəhəndə olacaqlar [Hökumət qarşısında məsuliyyət daşıyacaqlar]. Alış-verişçilər istəsələr bandrol almağa məşrubat [içki] vergi idarəsindən ala bilərlər. Qeyri-əzan [bundan əlavə] bu mallar həp cins "a" [yüksək keyfiyyətli] mallardan hesab olunurlar. Əgər yuxarıda yazılan əmrləri alış-verişçilər yerinə yetirməsələr, Azərbaycan Cümhuriyyəsinin qanununa görə cavab verəcəklərdir.

*Maliyyə naziri*
*6/4*

## BAKI ƏHALİSİNƏ

Bakı Şəhər İdarəsi çörək yoxluğunun səbəblərini göstərməyə özünü borclu bilir. Əvvəla, Türk Ordusunun Bakıdan köçməsindən naşi [ötrü] dəmiryolları yüklə dolmuşdur və saniyən [ikinci olaraq] Zaqafqaz dəmiryolu axırıncı yağışlardan çox zərərdidə olmuşdur [zərər çəkmişdir]. Bu səbəbdəndir ki, dəmiryolları ilə ərzaq gətirmək çətinləşib, bu axırıncı həftədə taxıl heç gəlməmişdir.

Tezliklə dəmiryolu təmir edilməsi üçün Hökumət tərəfindən tədbirlər görülməkdədir. Bu yaxında Lənkəran və İran yolları dəxi açıldıqda, Bakı Şəhər İdarəsi yenə də bazarda çörəyin bollaşmasına ümid edir.

Böylə müşkül halda camaatın imdadına yetişmək üçün Şəhər İdarəsi Ərzaq şöbəsi qabaqca hazırlanmış arpa ununu çörəkçilərə paylayıb, çörəyin girvənkəsini 2 manatdan satdırmaqdadır. Bu dükanlar siyahısı xüsusi elan olmuşdur.

Şəhər İdarəsi əhaliyə müraciət edib, camaatın təşvişə düşməməsini rica edib, bu yaxında ərzaq qəhətliyinin rəf ediləcəyinə [aradan qaldırılacağına] inandırır.

Bununla belə, Şəhər İdarəsi alış-verişçilərə öz vətəndaşlıq vəzifələrini unutmamalarını tövsiyə edib, məişətin bu çətin zamanında ərzağı gizlədib qiymətlərin bahalaşdırmamasını və hər bir növ ilə ərzaq yoxluğunun asanlaşdırılmasına səy etmələrini rica və təmənna edir.

*Bakı Şəhər qlavası*
*[Şəhər İdarəsinin rəisi]*
*İlyuşkin*
*6/2 2-1*

## ŞURAYI-MİLLİ ƏZALARINA

Şurayi-Milli əzaları noyabrın 16-sına dəvət edilmişkən, bir çoxları hələ Bakıya gəlməmiş və nə səbəbə dəxi gəlmədiklərini bildirməmişlərdir. Şurayi-Milli rəyasəti əzayi-müşarileyhimin [haqqında danışılan üzvlərin] bəhəməhal [mütləq] dekabrın 3-də Bakıda bulunmalarını rica edir.

*Şurayi-Milli rəisi:*
*Məhəmməd Əmin Rəsulzadə*
*6/6*

## ŞURAYİ-MİLLİ İDARƏSİNDƏN

Şurayi-Milli dəftərxanasında xidmət etmək üçün türkcə və rusca bilir təcrübəli bir mütərcim lazımdır. Xahiş edənlərin Şurayi-Milli rəyasətinə müraciəti tövsiyə olunur.

*Şurayi-Milli idarəsi müdiri:*
*Məhəmməd Səid*
*6/5*

## BAKI ŞƏHƏR İDARƏSİ ƏRZAQ ŞÖBƏSİ

Tərəfindən aşağıdakı çörəkçi dükanlarına arpa unu buraxılıb, camaata girvənkəsi 2 manatdan çörək satılacaqdır.

**Belı qorodda:**
Müstəhlik cəmiyyəti – "KÇNİTO"
Müstəhlik cəmiyyəti – "Şibayev"
**Çornı qorodda:**
Müstəhlik cəmiyyəti – "Nobel"
**Bayılovda:**
Bayılov şosesində 84 – Kiriyaqidinin dükanı
Bayılov şosesində 84 – Hüseyn Fərəc oğlu
**Şəhərdə:**
Şamaxinski 15 – "Qretsiya"
Şamaxinski 26 – Şeremetyev
Krasnı krest caddəsində 18 – Popondopullo
Merkuryevski caddədə 19 – İvanov
Krasnovodski caddədə 39 – Eftivulis
Nijni Priyut caddəsi Krasnovodski küncündə 144/53 - Komişidi
Çadrovı və Tatarski caddələrin küncün-də – Xristopulo
Vodovoznı caddədə 10/12 – Eliftiriadi
Balaxanski 84 – İqropullo
6-ıncı Zavağzal Poroxovoy caddənin küncündə 12/22 – Kirakosyans
Stanislavski caddə 66 – Xaçaturyans
Stanislavski caddə 97/99 – Ovanesyans
Şaxski caddə 35 – Məşhədi Abdulla Abutalıb oğlu
Bolşoy Morskoy Balaxanski caddənin küncündə 80/45 – Faqurin
Bolşoy Çəmbərəkənd caddəsi 83 – İbad Abdulla oğlu
4-üncü Qanlıtəpə Tatyaninski caddə küncündə – Avakov
Aleksandro-Nevski sırada – İsmayılov
**Sabunçuda:**
Dmitriadi (Kazak çörəkçi dükanı) – Cavadovun 92 nömrəli evi
**Zabratda:**
Volçkinski caddədə Kərimovun 43 nömrəli evində Məhəmmədrəsul Ağarza oğlunun dükanı

Aşağıdakı dükanlar çörəyi yarısı arpa və yarısı buğda unundan pişirib 3 manat 60 qəpikdən satacaqlar:
Kolyubakinski caddə 29 – Lipiridi
Çelyayev Aleksandro-Nevski sıra – Lipiridi
Krasnovodski və Kamenitsi caddənin küncündə Pivovarovun dükanı

*Bakı Şəhər İdarəsi Ərzaq şöbəsi*
*6/3*

## ƏRAZİ VƏ DÖVLƏT ƏMLAKI NƏZARƏTİNDƏN

Bununla ümuma elan olunur ki, Ərazi və Dövlət Əmlakı nazirinin qərardadına binaən [görə], Azərbaycan Cümhuriyyəti təhti-idarəsində [idarəsi altında] olan Bakı quberniyası, Cavad uyezdi, Muğan səhrasının yerləri işbu il müddətində, yəni 1919 kanunu-əvvəlin [dekabrın] 31-inə kimi **müzayidəsiz [hərracsız] (torqsuz) olaraq əkin əkmək üçün** ancaq kənd cəmiyyətlərinə, onların üzvlərinə və kəndlilər zəhmətkeş şirkətlərinə [kəndlilərin qurduqları əmək birliklərinə] icarəyə veriləcəkdir.

Bu yerlər işbu elandan 15 gün müddətinə kimi, yəni 5 kanunu-əvvəl tarixinədək Cavad uyezdi Petropavlovka (Qalaqayın) kəndində Muğan səhrası mühəndis[i] P. N. Klimenkonun təhtisədarətində [başçılığı altında] xüsusi heyət tərəfindən icarəyə veriləcəkdir.

Müəyyən vaxtdan sonra yerlər müzayidəsiz icarəyə verilməyəcəkdir. Muğan səhrası yerlərini icarəyə götürmək arzusunda olan kənd cəmiyyətləri, üzvləri və zəhmətkeş kəndlilər şirkətləri kanuni-əvvəl[in] 5-indən gec olmamaq şərti ilə bu barədə də Petropavlovka (Qalaqayın) kəndindəki xüsusi heyət sədri mühəndis Klimenko cənablarına ərizə pişnihad [təqdim] edib arzu etdiyi yerin məhəllini [yerini] və miqdarını göstərməlidir.

Yerlər 50 desyatin və yuxarı miqdarda əlahiddə qitələrlə [ayrı-ayrı hissələr halında] icarəyə verilir. Bunların məhəlli [və] hüdudu [yeri və sərhədi] xüsusi planda nişanlanmışdır. Həmin planı Petropavlovka (Qalaqayın) kəndində xüsusi heyət sədrində görmək mümkündür.

Qitələri hissə ilə də icarəyə verməyə xüsusi heyət nazir tərəfindən müvəkkildir.

İcarə haqqı üç növlə veriləcəkdir:

1. Pul ilə – hər desyatinə 11 manat olmaq şərti ilə;

2. Mal ilə – əkiləcək yerin məhsulundan əkin növünün hər desyatin[in]dən bu qərar ilə:

1) Buğda və yaxud noxud əkilərsə 5 put
2) Arpa və qarğıdalı əkilərsə 2/7 put
3) Pambıq əkilərsə birinci məhsuldan 3 put
4) Darı əkilərsə 10 put
5) Küncüd əkilərsə 3 put

Hərgah kartof və bağça əkilərsə, əvəzinə yuxarıda yazılan məhsulat verməlidir.

3. Su pulu – hər desyatinə 25 rublə.

Yer və su üçün veriləcək pul 2 qist [hissə, pay] ilə verilir: yarısı yeri aldıqda və o biri yarısı da 1 iyul 1919-da.

İcarə haqqı veriləcək mal, məhsulat ələ gəldikdən sonra verilir. Pambıq və küncüd üçün 1 təşrini-əvvəl [oktyabr] 1919 və qeyriləri üçün 1 iyul 1919 tarixdən gec olmamaq şərti ilə icarə haqqı xəzinəyə və yaxud xüsusi sborşçikə (pul yığan) verib, heyət tərəfindən verilmiş qəbzlər alınır.

İcarə haqqı olaraq verilən mallar isə icarədarlar tərəfindən Qaradonlu, Mürsəlli, Saatlı, Qalaqayın [kəndlərində] və Salyan şəhərində vaqe dövlət ərzaq anbarlarına təhvil verilir. İcarədarlara su növbətlə buraxılıb, vaxtdan, miqdardan və məhsul növündən asılı olacaqdır. Muğan səhrasındakı yerləri icarəyə götürmüş kənd cəmiyyətləri üzvləri və zəhmətkeş kəndlilər şirkəti işbu elanda göstərilmiş və xüsusi qanunlarla elan olunmuş şərait əsası ilə xüsusi heyətlə şərtnamə bağlamalıdır. Bu şəraitləri Ərazi Nəzarəti dəftərxanasında (Telefon caddəsində, nömrə 6), Bakı Ərazi İdarəsində (Vodovoznı caddə, nömrə 8) və Gəncə Ərazi İdarəsində (Gəncə şəhərində) və Cavad, Şamaxı, Göyçay, Quba uyezdləri naçalnik və mahal pristavları dəftərxanalarında və həmçinin Qalaqayında xüsusi heyət dəftərxanasında (Muğan səhrası mühəndis dəftərxanası) görmək mümkündür.

Yuxarıda göstərilən vaxt müddətində kənd cəmiyyətlərinə, üzvlərinə və zəhmətkeş kəndlilər şirkətlərinə icarəyə verilməyən Muğan səhrası yerləri müzayidə ilə [hərracla] arzu edənlərə icarəyə veriləcəkdir. Bu barədə xüsusi elan olunacaqdır.

*Ərazi naziri dəftərxanası*

**Hamam**

İcarə verilir Yuxarı Təzəpir caddəsində "Hacı Yunis" hamamı. Arzu edənlər Merkuryevski caddədə Əşrəfovun mağazasına müraciət edə bilərlər.

**O. A. Salmanın**
**Diş kabinəsi və süni diş müalicəxanası**

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

*253*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

*215*

**Diş təbibəsi Altmanın diş müalicəxanası**

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

*245*

**Doktor Ağahüseyn Kazımov**

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

*244*

**Doktor F. S. Ştеyn**

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

*232*

**Doktor Kamilə xanım İsmayılov**

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

*235*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

*236*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

*237*

**Həkim Arşak Ayrapetoviç Akopyans**

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

*256*

**Doktor Krinski**

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovı caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

*263*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan 1-ə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

Burada leyli [gecə] yatacaqlarıyla qadın cərrahiyyə xəstəxanası mövcuddur.

*209*

**Mama-feldşer M. K. Markoviç**

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

*240*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Maliyyə Nəzarətində***

"19 təşrini-sani 1334": Burada il rumi təqvimlə göstərilmişdir, miladi təqvimlə 19 noyabr 1334-cü ilə uyğundur.

"Statski sovetnik": Dövlət müşaviri; Rusiya imperiyası dövründə mülki rütbə.

***İstiqlal***

"…qövldən feilə...": Qəzetdə "qövldən" yerinə səhvən "qüvvədən" yazılmışdır.

***Alman Xariciyyə nazirinin müraciəti***

"Alman Xariciyyə naziri…": Burada söhbət Vilhelm Zolfdan gedir.

***[Xəbərlər]***

"…qalibiyyət, məsai və hasilat təşkilatlarının şüarı ilə münasibəti olan islahatdan ötrü istifadə olunmalıdır.": Cümlənin bu hissəsi qeyri-dəqiqdir. Belə başa düşülməlidir: "...qalibiyyət, əməyin və istehsalatın təşkilinin problemləriylə bağlı reformlar üçün istifadə olunmalıdır."

***Hacı-Tərxan nahiyəsində***

"K. Q.": Astraxanda nəşr olunan "Kraynaya qazeta" nəzərdə tutulur.

***Bakı xəbərləri***

"Port dairəsi": Bakı Dəniz Ticarət Limanı nəzərdə tutulur.

***Məhtabi-şita***

"Fatehlərin, Səlimin nuri-cəlalı parlar": Osmanlı sultanları II Məhmət və I Səlim nəzərdə tutulur.

***"Məhtabi-şita" şeiri (səh. 489) üçün lüğət:***

məhtabi-şita: qışda ay işığı
ruyi-münəvvər: nurlu üz
rəsi-cəbəl: dağların başı
vəchi-müdəvvər: yuvarlaq çöhrə
aləmi-büləndü-heyrət-fəza: uca və heyrətli aləm
rüxsari-feyzkar: feyzli üz
xak: torpaq
ruyi-nigəh-şikar: baxışı ovlayan üz
rövnəq-füruzi-ülvi: uca bir işıq mənbəyi, parlaqlıq
mehtabi-zilətafət: lətafətli ay işığı
kövkəb: ulduzlar
leyləyi-mükövkəb: ulduzlu gecə
kuhsar: dağlıq
abidati-əsar: əsrlərin abidələri
mah: ay
nuri-cəlal: cəlalın, əzəmətin nuru
məşriq: şərq, günəşin doğduğu yer
mahi-zəfər-nüma: zəfər göstərən ay
müzlim: qaranlıq
zümreyi-rəha: qurtuluş təbəqəsi
ərzi-pürbəha: çox qiymətli torpaq
məzhər olmaq: nail olmaq
sitəmkaran: zalımlar
tiğ: qılınc
müzəffəran: qaliblər

***Çay-qənd***

"Asmuşka": rusca "səkkizdə bir" mənasına gələn "vosmuşka" [восьмушка] sözünün arxaik şəkli olan "osmuşka"nın [осьмушка] təhrif edilmiş variantı.

***Maliyyə Nəzarətinin elanı***

"Azərbaycan Cümhuriyyəsinin hamı alış-verişçilərinə elan olunur ki, bandrolsuz tənbəki, papiros və siqaralar satmaq, necə dükanlardan və əldə satmaq üçün və bu malları həm Bakıdan çıxartmaq Hökumət tərəfindən məmnudur [qadağandır].": Bu cümlə elanın rusca mətnindən səhv tərcümə edilmiş və anlaşılmaz hala gəlmişdir. Belə olmalıdır: "Azərbaycan Cümhuriyyətinin bütün tacirlərinə elan olunur ki, yerli istehsal, yaxud idxal məhsul olmasından asılı olmayaraq, bandrolsuz tənbəki, papiros və siqaraların həm dükanlarda, həm əldə, həm də çatdırılma üsuluyla satışı qəti qadağandır."

"…məşrubat vergi idarəsindən…": Aksiz İdarəsi nəzərdə tutulur.

***O. A. Salmanın…***

Bu elan qəzetdə yarımçıq çıxmışdır.

# Məktublar: problemlər, rəylər, təkliflər...






## Oğlum şəhidliyi ilə mənə qürur bəxş edib



**Üç övladımdan biri - Şahlar Hüseynov 1994-cü ildə Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Amma övlad itkisi ağır olsa da, dövlətimiz, eləcə də ətrafımdakı insanlar məni övlad nisgili çəkməyə qoymayıblar.**

Elə bu günlər 75 yaşımın tamam olması ilə əlaqədar rayon icra hakimiyyəti tərəfindən yubiley tədbiri keçirildi. Yubileydə ictimaiyyət nümayəndələri ilə yanaşı, rayon icra hakimiyyətinin başçısı Seymur Orucov da iştirak etdi. O, mənə xoş arzularını bildirdi və RİH-in fəxri fərmanını təqdim edib, bir şəhid atası kimi mənimlə fəxr etdiyini söylədi.

Qeyd edim ki, uzun illər aşıqlıq sənəti ilə məşğul olmuşam. Tez-tez el şənliklərinə gedir, xalqımızın sevincini bölüşürdüm. Doğrudur, oğlum şəhid olandan sonra elə bilirdim ki, artıq aşıqlıq etməyə qüvvəm çatmayacaq. Lakin sonralar düşündüm ki, mən bu sənəti davam etdirməklə oğlumu da yaşada bilərəm. Rayonumuzun ictimai-mədəni həyatında iştirakımı davam etdirdim. Elə 75 illik yubiley gecəmdə çıxış edənlər bu sahədə qazandığım uğurlardan söz açdılar ki, bu da mənə qürur verdi.

Hörmətli redaksiya! Mənə və övladımın ruhuna göstərilən ehtirama görə hər kəsə ailəmiz adından dərin minnətdarlığımı bildirirəm.

*Hüseyn HÜSEYNOV,*
*Ağstafa rayonu, şəhid atası*

## Şəhidimizlə fəxr edirik

**Vətən müharibəsinin ilk günlərindən yüzlərlə qubalı gənc Ali Baş Komandanın çağırışı ilə ordu sıralarına yazıldı. Kiminin taleyinə şəhidlik zirvəsi yazıldı, kimisi də qalib kimi evinə, yurduna döndü.**

Alın yazısı şəhidlik olan oğullardan biri də Tamerlan İlqar oğlu Əliyevdir. O, Rusiyanın Ufa şəhərində doğulmuş, orada böyümüşdü. Qubaya gəldiyi bir neçə il idi. Amma vətən sevgisini doğulandan dadmışdı.

Mən onu yaxından tanımırdım. Lakin barəsində o qədər xoş söz eşitmişəm ki, bəlkə yüz yaşlı bir insanın ömür kitabına yerləşdirmək olar onları. Eşidəndə ki, Qubada küçələrdən birinə Tamerlanın adı verilib, bir rayon sakini kimi sevindim. Çünki belə oğullar unudulmamalıdır.



Əvvəllər həmin küçə təmirsiz idi və bu, qubalıları çox üzürdü. Onun da çarəsi tapıldı. Rayon yerində xəbər tez yayılır. Eşitdik ki, həmin küçənin təmirinə başlanıb. Camaatımızın çoxu təmir günlərində yolunu oradan salırdı. Hamı da əlindən gələn köməyi etməyi özünə borc bilirdi.

İndi Tamerlanın adını daşıyan küçə Qubanın gözoxşayan ərazisinə çevrilib. Hər dəfə bu küçədən keçəndə içimdə bir qürur hissi yaşayıram. Birincisi, canını Vətənə qurban verən bir oğulun adını daşıyan küçədən keçdiyim, ikincisi də qədirbilən xalqın nümayəndəsi olduğum üçün.

*Akif BƏŞİROV,*
*Quba rayonu*

## AZƏRBAYCAN-a cavab verirlər

### "Qazlaşdırma mərhələli şəkildə həyata keçirilir"

**Cəlilabad rayonunun təbii qazla təmin olunmayan yaşayış məntəqələrinin və yeni yaşayış massivlərinin qazlaşdırılması ilə bağlı "Azəriqaz" İstehsalat Birliyinə ünvanladığınız məktub araşdırılmışdır.**

Məlumat üçün bildiririk ki, qazlaşdırma tədbirləri müvafiq dövlət proqramlarına uyğun olaraq "Azəriqaz" İB-nin maliyyə imkanları çərçivəsində mərhələli şəkildə davam etdirilir. 2023-cü ildə Cəlilabad rayonunun Hacıməmmədli kəndinin, şəhərin Cavad xan, Nəsibə Zeynalova və Ə.Məmmədov küçələrində yerləşən yeni yaşayış massivlərinə paylayıcı qaz kəmərlərinin çəkilməsi nəzərdə tutulmuşdur.

Cəlilabad rayonunun təbii qazla təmin olunmayan digər yaşayış məntəqələrinin və yeni yaşayış massivlərinin qazlaşdırılması məsələsinə mərhələli şəkildə "Azəriqaz" İB-nin mövcud maliyyə imkanları çərçivəsində baxılacaqdır.

*Ruslan ƏLİYEV,*
*"Azəriqaz" İB-nin baş direktoru*

### Sakinlərin xahişi yerinə yetiriləcək

**Sumqayıt Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinə ünvanladığınız məktubunuza cavab olaraq bildiririk ki, şəhərin 2-ci mikrorayon ərazisinə "Sumqayıt Şəhər Təmizlik Departamenti" MMC-nin əməkdaşları tərəfindən baxış keçirilmişdir. Həmin əraziyə tullantı konteynerinin yaxın zamanda yerləşdirilməsi həyata keçiriləcəkdir.**

Eyni zamanda qeyd edirik ki, ərazidən tullantılar vaxtlı-vaxtında daşınır və bu iş daim nəzarətdədir.

*Hüseyn HƏSƏNOV,*
*Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında*
*Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi*

## Səyyar görüşdə qaldırdığım məsələ həll olundu

**Rayonumuzda həyata keçirilən bütün işlərdə vətəndaş məmnunluğunun təmin edilməsinə üstünlük verilir. Qaldırılan problemlərə göstərilən diqqət və həssaslıqla yanaşılması biz sakinlərin ürəyincədir.**



Yaşadığım Alpout kəndində rayon rəhbərliyinin bizimlə keçirdiyi səyyar görüşdə kənd tam orta məktəbinin qarşısında avtobus dayanacağının qoyulması ilə bağlı müraciət etdim. Çox çəkmədi ki, problem həllini tapdı. Sözügedən ərazidə müasir avtobus dayanacağı qoyuldu. İndi kənd sakinləri çox rahatlıqla həmin dayanacaqdan istifadə edirlər.

*Əhəd VƏLİYEV,*
*Qazax rayonunun Alpout kəndi*

## Fotofakt







Gediş-gəlişin müntəzəm olduğu səkidə - piyada keçidinin üstündə elektrik xətlərinin üstüaçıq qalması deyəsən əlaqədar təşkilatları narahat etmir. Etsəydi, fərqinə varardılar ki, Bakı şəhəri A.M.Şərifzadə küçəsindəki bu xətlər açıq-aşkar təhlükə mənbəyidir, xüsusən də yağışlı havalarda. Belə çıxır ki, kimlərinsə işinə məsuliyyətsiz yanaşması şəhər sakinlərinin həyatını real təhlükə qarşısında qoyur. Halbuki belə kabellərin xüsusi qutulara yerləşdirilməsinin zəruriliyini bilməyən yoxdur.

**Foto İlham BABAYEVİNDİR**

## Bütün təhlükələr arxada qaldı

**Bakı-Qazax yolunun Göygöl şəhərindən keçən hissəsində və Gəncə-Göygöl yolunda həm piyadaların, həm də nəqliyyat vasitələrinin müxtəlif istiqamətlərə gedişini təmin edən qovşaq var. Amma gecə saatlarında bu ərazi təhlükə mənbəyinə çevrilirdi.**



Hər iki yolun çəkilişi zamanı ərazinin işıqlandırılması üçün infrastruktur yaradılsa da, o, istifadəsiz qalmışdı. Bununla bağlı vətəndaşların uzun illər müxtəlif qurumlara göndərdikləri müraciətlərə məhəl qoyulmurdu. Nəticədə həmin ərazidə ağır yol-nəqliyyat hadisələri baş verirdi. Elə piyadalar üçün də gecə saatlarında bu ərazidən keçmək təhlükəli idi.

Artıq bu problemlər arxada qalıb. Əhalinin müraciətlərini nəzərə alan Göygöl Rayon İcra Hakimiyyətinin işə qarışması sayəsində hər iki yol - Gəncə-Bakı magistralının Göygöl şəhərindən keçən hissəsi və Göygöl-Gəncə yolu işıqlı günə, daha doğrusu, işıqlı gecəyə çıxıb. İndi sürücülər də, piyadalar da gecələr bu ərazidən təhlükəsiz keçirlər.

Qəzetiniz vasitəsilə bu işdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm.

*Araz HACIYEV,*
*Göygöl rayonu*

## Ömürlərə ömür calayır

**Bəzən tanınmayan, işi-gücü olmayan bir kəs 100 il, bir dahi isə çox qısa ömür yaşayır. Tanınmayan elə dünyanı tərk etdiyi gün də unudulur. Dahi, xeyir əməl sahibi isə zamanın yaddaşına möhürünü vurub xatirələrdə yaşayır.**



Bir də var həkim ömrü... Başqalarının da ömürlərində yaşanan ömür. Həkimləri xeyir mələyi də adlandırmaq olar. Təbii ki, bu zaman söhbət insanların ömrünə ömür qatan, dərdinə əlac edən, xəstəyə ümid olan həkimlərdən gedir.

Xaləddin Qafarovu 40 ilə yaxındır ki, tanıyıram. 1987-ci ildən Ucar Rayon Mərkəzi Xəstəxanasında nevroloq işləyir. Maraqlısı budur ki, onu tanıyanların hamısı Xaləddin həkimi özünün yaxın dostu, sirdaşı, təkcə dərdini yox, həm də sirrini, sözünü deyə biləcək etibarlı həmsöhbət bilir. Müraciət edib şəfa tapanlar onu özlərinin xilaskarı bilir, dərdinə əlac edə bilmədiklərinin yaxınları isə "Xaləddin həkim də bir şey edə bilmədisə, qisməti bura qədərmiş, olacağa çarə yoxdur", - deyib taleyin hökmü ilə barışırlar.

İnsanı tanıdan, fərqləndirən həm də onun xasiyyətidir. Bu mənada şəfalı əllərindən, həkimlik bacarığından başqa, Xaləddin həkimi elə, obaya sevdirən onun yaxşı adam olmasıdır.

Əyalətdə həkim işləməyin öz çətinlikləri var. Rayon həkiminin xəstə üstünə evə çağırılmağı, bəzən ağır xəstənin başının üstündə günlərlə keşik çəkməyi da olur. Rayon adamları axşamlar qapısını bağlayıb, telefonunu söndürüb, "istirahət edirəm" deyən həkimlərin üstünə getməzlər, dərdini anlayanların yanına tələsərlər.

Ömür gün yoldaşı Şəhla xanım Xaləddinlə bir sinifdə oxuyub: "Onu mənə də, insanlara da sevdirən həkimliyindən çox insanlığı olub. Hələ bir dəfə də olsun Xaləddinin gecələr qapını döyənə, onu çağırana "kimsən", "nə olub", "niyə gəlmisən", "gedə bilmərəm" dediyini eşitməmişəm. Bir də görmüşəm ki, çantasını götürüb gedir".

Xaləddin həkim isə deyir ki, gecələr qapı döyülürsə, demək kömək lazımdır: "Son ümid yeri məni bilib gəlib. İstər nə qədər vacib işim olsa, mütləq üstümə gələnin çağırışına getməliyəm. Evlərə, xəstələrin üstünə gedəndə diqqətimi ilk cəlb edən xəstə yaxınlarının mənə zillənən ümid dolu baxışları olur. Onda başımı göyə qaldırıb yaradanımdan güc, qüvvət istəyirəm. Bəzən elə olur ki, günlərlə yuxusuz da qalmalı oluram, yoruluram. Həyata qaytardığım bir xəstəmin dediyi "həkim, sağ ol, məni yenidən həyata qaytardın" kəlməsi ən böyük mükafatımdır. Yorğunluğumu evə qayıdandan sonra tarımı sinəmə sıxıb "Bayatı şiraz", "Şahnaz" çalmaqla çıxarıram. Həmişə öz peşəmi sevmişəm. 44 günlük Vətən müharibəsi zamanı isə yaralı əsgərlərimizi müalicə etdiyim üçün həkim olmağımla fəxr etmişəm".

Ömrünü neçə-neçə xəstənin ömrünə calayıb, özü də min ömürdə yaşayan insandır Xaləddin həkim. Yaşadığı həkim ömrü onu yalnız doğulduğu Boyat kəndinin, fəaliyyət göstərdiyi rayonun yox, qonşu rayonların da sevimlisi edib. Çünki o, 60 ili yola verənlərdən yox, yaşamağı bacaranlardandır.

*E.QƏNİYEV,*
*Ucar rayonu*

## Sürücü və sərnişinlərin təhlükəsizliyi üçün...



**Məlum olduğu kimi, ötən ilin sonlarında Binəqədi rayonu ərazisində metronun "Xocəsən" stansiyası istifadəyə verilib. Bu, orada və yaxın ərazilərdə yaşayan sakinlərin razılığı ilə qarşılanıb. Mən də həmin ərazidə yaşayıram. Artıq metro ilə hərəkət edirəm. Odur ki, vaxt itkisini bir neçə dəfə azaltmışam.**

Amma metro ilə üzbəüz Xocəsən yolundakı bir problem məni və yolu oradan düşənləri narahat edir. Problem bundadır ki, ikihərəkətli yolda avtobus üçün dayanacaq olsa da, onun sərnişin götürüb-düşürməsi üçün ərazi ayrılmayıb. Gündüzlər yenə keçinmək olur. Hava qaralandan sonra isə ictimai nəqliyyatın bu işi çətinləşir, daha doğrusu, təhlükəli olur.

Bu iki-üç ayda həmin ərazidə dəfələrlə qəzaların şahidi olmuşuq. Nə qədər gec deyil, həmin dayanacaq olan ərazidə avtobusların sərnişinlərə təhlükəsiz xidmət etmələri üçün yolu, başqa yerlərdə olduğu kimi, bir qədər genişləndirmək lazımdır, bəlkə də vacibdir.

*Azad ZƏFƏROĞLU,*
*Bakı şəhəri Binəqədi rayonu, müharibə veteranı*

## Binəqədi qəsəbəsində kanalizasiya yoxa bərabərdir

**Artıq neçə illərdir ki, Binəqədi qəsəbəsinin kanalizasiya xətləri demək olar ki, işləmir. Bir balaca yağıntı düşən kimi çirkli sular dizə çıxır, yollarda gölməçələr yaranır, hər yanı üfunət iyi bürüyür.**



Dəfələrlə "Azərsu"ya və digər aidiyyəti qurumlara şikayətlər olunsa da, lazımi tədbir görülmür. Hərdən gəlib kanalizasiyalarda qurdalanıb çıxıb gedirlər.

Deyilənlərə görə, qəsəbənin kanalizasiya xətləri ötən əsrin 60-70-ci illərində çəkilib. Təmirçilər də xətlərin istismar vaxtının çoxdan başa çatdığını etiraf edirlər.

Belə olan halda haqlı sual yaranır: görəsən indi daha nə qədər zaman lazımdır ki, "Azərsu" istismara yararsız kanalizasiya xətlərini dəyişdirməyə qərar versin?

*B.MİRZƏYEV,*
*Bakı şəhəri Binəqədi rayonu*

## Görəsən ictimai nəqliyyatdakı problemlər nə vaxt həll olunacaq

**Marşrut avtobuslarının qıtlığı və bu qıtlığın sərnişinlərə yaratdığı problemlər bitmir. Hətta bəzən iş o yerə çatır ki, "ağzınacan" dolu olan həmin nəqliyyat vasitələri bir çox dayanacaqda saxlamırlar. Uşaqlı anaların, yaşlı qadınların, zavallı qocaların yanlarından şütüyüb keçən avtobusların arxasınca necə kədərlə baxdıqlarını görəndə adamın ürəyi üzülür.**

Düzdür, hamı bilir ki, bunun səbəbi avtobus qıtlığıdır. Üstəlik, avtobusların çoxu köhnədir, istismara yaramır. Ancaq hər gün şahidi olduğumuz bir mənzərə də var: marşrutda işləyən avtobuslar sonuncu dayanacaqlarda bir-birinin ardınca dayanaraq sərnişin sıxlığı yarananadək xəttə çıxmırlar. Onlara etiraz edəndə də deyirlər ki, "biz qrafiklə işləyirik, vaxtımıza hələ çox var".




Sualımız Bakı Nəqliyyat Agentliyinədir: "Görəsən bu vaxt və qrafik nəyə xidmət edir - sərnişinlərin rahat və təhlükəsiz daşınmasına, yoxsa marşrut sahiblərinin daha çox qazanmasına?"

*İman İMANQULİYEV,*
*Bakı şəhəri*

# Müharibə əlili Taleh Camalovun əməliyyat xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb



"YAŞAT" Fondu tərəfindən müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə işlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, müharibə əlili Taleh Camalovun əməliyyat xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb.

Qazimiz bundan öncə də Türkiyədə müalicə alıb və məişət şəraiti yaxşılaşdırılıb.

Görülən işlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" **(https://yashat.gov.az/report/tableau)** bölməsindən əldə etmək olar.

# IDEA-nın ianə qutularına toplanmış oyuncaqlar uşaqlara paylanılır






Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Sevincini bölüş" xeyriyyə kampaniyası çərçivəsində ianə qutularına toplanan oyuncaqların xüsusi qayğıya ehtiyacı olan uşaqlara paylanılmasına başlanılıb.

AZƏRTAC xəbər verir ki, toplanmış ilk oyuncaqlar 1 saylı Sağlamlıq İmkanları Məhdud Uşaqlar üçün Sosial Xidmət Müəssisəsindəki balaca dostlara hədiyyə olunub.

Qeyd edilməlidir ki, ötən ilin sonunda start verilən sözügedən kampaniya ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır, ianə qutuları təbiətə və ehtiyacı olanlara biganə qalmayan çoxsaylı insanlar tərəfindən kütləvi surətdə oyuncaqlarla doldurulur.

İndiyə qədər IDEA İctimai Birliyinin "Sevincini bölüş" xeyriyyə kampaniyası çərçivəsində Bakının üç məkanında, o cümlədən "Gənclik Mall", "28 Mall" və "Dəniz Mall" Ticarət mərkəzlərində oyuncaq ianə qutuları yerləşdirilib.

Sözügedən qutulara insanlar özlərinin və ya övladlarının istifadə etmədikləri və paylaşmaq istədikləri oyuncaqlar yerləşdirə bilərlər. İanə edilən oyuncaqları qutulara atmaqdan öncə təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir. Təkraristifadə qutularına toplanan oyuncaqların mütəmadi olaraq müxtəlif xeyriyyə təşkilatları və paylanma məntəqələri vasitəsilə uşaqlara paylanması nəzərdə tutulur.

Məlum olduğu kimi, yüksək tələbata malik olan oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərərlə bağlıdır.

Bu xüsusda IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə, IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır.

# Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq

**Azərbaycanda martın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə bəzi yerlərdə duman olacaq. Axşam Abşeron yarımadasının şimalında az çiskinli hava müşahidə ediləcəyi ehtimalı var. Mülayim şimal-qərb küləyi gecə arabir güclənəcək. Havanın temperaturu gecə 3-6° isti, gündüz 10-15° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 765 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət isə 65-75 faiz olacaq.

Azərbaycanın əsasən şimal və qərb rayonlarında havanın yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 15-20° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** ***qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Azərmətbuatyayımı" ASC*** | *(012) 441-19-91, (050) 322-33-17* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Ekoaksiya 81 gündür davam edir

***Əvvəli 1-ci səh.***




Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

Buna etiraz olaraq azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən ərzaq mallarının satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 23 fevral 2023-cü il tarixli qərarına əsasən "OFİS PLUS" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi

**"Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı**

***müsabiqə keçirir***

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Müvafiq qanunvericiliyə əsasən imtiyazlı kateqoriyadan olan şəxslərə sanatoriya-kurort putyovkalarının (yollayışların) alınması" adlı müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 16 mart 2023-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 17 mart 2023-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili:5033)**

***Müsabiqə komissiyası***


# Azad edilmiş ərazilərdə ötən ay aşkarlanan partlamamış hərbi sursatların sayı açıqlanıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə bütün qurumlar tərəfindən icra edilən minatəmizləmə əməliyyatları barədə aylıq məlumatı açıqlayıb. ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, fevralın 1-dən 28-dək Tərtər, Kəlbəcər, Ağdam, Xocalı, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 40, tank əleyhinə 116 mina və 1487 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ötən həftə ərzində 2470,33 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əliyev, Kamal Qafarov, Şahin Qarayev, Azər Qədirov, Fuad Bəşirov, Mətləb Abbaslı, Lazım və Rafiq Hüseynovlar Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdir müavini Firdovsi Xəlilova anası

**GÜLAYƏ FƏRMAN QIZI ƏRƏBOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5171**
**Sifariş 561**

**Qiyməti 40 qəpik**